

## Prezidentlə xanımı Tədris və Xidmət Kompleksinin açılışında

*Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub. "Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.* Səh.2

# UNİKAL

№03 (2088) 28 yanvar 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



## Ramiz Mehdiyev Elton Məmmədovu məhkəməyə verdirdi

*Sabiq deputat Elton Məmmədov barəsində xüsusi ittiham qaydasında şikayət olunub. "Unikal" xəbər verir ki, şikayətçi E. Məmmədovun Cinayət Məcəlləsinin 147.2-ci (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə ittiham olunmasını tələb edib. Səbail Rayon Məhkəməsində hakim Günel Səmədovanın icraatına verilib. Məhkəmənin ilkin baxış iclası fevralın 2-ə təyin edilib. "Dünən bununla bağlı mənə mesaj gəldi. Düşünürəm ki, kim olar? Təbii ki, bu, ancaq araqarışdıran AMEA-nın hüquq şöbəsinin müdiri Kamal Əliyevdir". Bunu "Unikal"a açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının işlər idarəsinin sabiq müdiri Elton Məmmədov deyib. O bildirib ki, K.Əliyev AMEA-nın Prezidenti Ramiz Mehdiyevin komandası ilə birgə hərəkət edir:* Səh.10

Səh.9



## Məmurların yaratdığı yeni təhlükə

## "Cırıq şalvarda gəzənlər, bu günləri 100 milyonların sahibidir"



*Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayev "Unikal" qəzetinə müsahibə verib. O, həyata keçirilən kadr dəyişiklikləri, məmurların yaşam tərzi və digər məsələlərə toxunub.* Səh.4

## "Hafka"nı həbsə aparan "uzun, incə yol"...



*Azərbaycanın tanınmış, lakin elə bir o qədər də qalmaqallı iş adamı Hafiz Məmmədov həbs edilib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, Vergi cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində...* Səh.5

## Virtual məkanda fikir azadlığı və insan haqları



*Dünyada internetin əlçatan olduğu ölkələr söz azadlığının müəyyən qədər təmin edildiyi ölkələrin siyahısına düşsə də, rəqəmsal məkanda insan hüquqları məsələsi də yaddan çıxmamalıdır. Fikir azadlığı demokratik cəmiyyətin mühüm əsaslarından birini təşkil etməklə onun tərəqqisinin və inkişafının ən zəruri şərtidir.* Səh.10

# “On minimdən keçib səni taparam...” - Pərvin Abıyeva



***”Sosail şəbəkədə mənə söyüş yazırlar. Keçən dəfə altı-yeddi saat özümə gələ bilmədim”.***

Bu sözləri aktrisa Pərvin Abıyeva MTV Azərbaycan kanalında deyib: ”Ünvanıma təhqiramiz sözlər yazmışdılar. Axı, sən kimsən?! Çox pis söyüşlərlə ata-anama toxunurlar. Sən mənim ata-anamı nə dərəcədə tanıyırsan?! Sosial şəbəkədə hazırda adam tapmaq çox asandır. Nə qədər haker və proqramistlər var. Birinə min manat verib, lap on minimdən keçib səni taparam. Əsəbimə sahib çıxa bilməyib, sənə nəsə edərəm, sən də bədbəxt olarsan, mən də”.

# Rəqsanənin qızı bu dəfə nişanlısını göstərdi

***Müğənni Rəqsanə İsmayılovanın müğənni qızı Aysun İsmayılova Eşqin Cəlilovla nişanlanıb.***

Nişan Rusiyada olub. Aysun məclisə ögey atası Fazil Əmiraslanovla birgə daxil olub. Bəyin görüntüləri ilk dəfə sosial şəbəkələrdə paylaşılıb. Belə ki, Aysun onun üzünü uzun müddətdir gizlədirdi.

Tədbirdə çıxış edən Rəqsanə göz yaşlarını saxlaya bilməyib: “Bu gün mənə çox çətindir. Hiss edirəm ki, valideynlər üçün övlad köçürmək nə qədər çətindir. Aysun mənim canım, nəfəsimdir. Aysun məni ana edib. Mən də istəyirəm ki, Aysun, sən də ana olasan. Fazil bəyə də çox təşəkkür edirəm. Aysun atasız böyüyüb, amma bu gün... Çox sağ ol ki, Aysu-



nun yanında olur, ona dəstək olursan. Sənə çox minnətdaram”.

Məclisdə Zamiq Hüseynov, Türkan Vəlizadə, Adil Karaca və digər müğənnilər iştirak edib.

# Aygün Kazımovanın ad günündən görüntülər



***Xəbər verdiyimiz kimi, yanvarın 26-da Xalq artisti, pop-diva Aygün Kazımovanın 51 yaşı tamam oldu.***

“Unikal” qafqazinfoya istinadən xəbər verir ki, sənətkar doğum günündə sənət dostları ilə bir araya gəlib. ”Diva party” adlanan gecədə Xalq artisti iki libas dəyişib. O, öz mahnılarından ibarət mini konsert edib.

A.Kazımovanın doğum gününə karantin rejimi səbəbindən az sayda sənət dostu qatılıb.



# Şou-biznesimizin zövqsüz xanımları - Qalmaqal qopdu

***Stilist Elnur Həsənov şou-biznesdəki geyiminə görə tənqid edilən sənət adamlarının adlarını açıqlayıb.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, o, bu haqda ”Deməsəm olmaz” verilişində danışıb. Elnur proqramdakı tərəf müqabili, jurnalist Zəhra Əhmədovanın ”Şou-biznesin 5 ən zövqsüz xanım ifaçısının adını açıqla” sualına belə cavab verib:

”Birinci sırada Elnarə Xəlilovadır. İkinci Manana. Hazırda zövqünü bəyənmirəm. Gözəl xanımdır, amma geyimini sevmirəm. Ayrı ayrılıqda paltarlar qəşəngdir, məsələn, gödəkcəsi, ayaqqabısı, tulumu yaxşıdır. Amma onları birlikdə uyğunlaşdıra bilmir. Üçüncü Elnarə Abdullayevadır. Ola bilsin eşitsə, deyəcək, geyimlə gündəmə gəlmirəm. Dördüncü isə Damladır”.

Elnur beşinci adı daha sonra açıqlayacağını bildirib.

# “Bəlkə lüt şəkil də çəkdirəsən?” - Aparıcının hamam fotoları

***Rusiyalı müğənni və teleaparıcı Olqa Buzova Keyptaundakı oteldə çəkilmiş açıq-saçıq fotolarına görə sosial şəbəkələrdə biabır edilib.***



Müvafiq şəkil və şərhlər onun İnstaqram səhifəsində yer alıb. 36 yaşlı məşhur köpük vannasında çılpaq şəkildə çəkilib. Pərəstişkarları şəkli çox intim hesab edib və şərhlərdə sənətçini tənqid etməyə başlayıblar. ”Olya, kimin üçün belə şəkillər çəkirsən?” ”Şəkli kim çəkir?”, ”Həmişə olduğu kimi, yarıçılpaq və içkili”, ”Bəlkə, lüt şəkil də çəkdirəsən” deyə qəzəbli şəkildə yazıblar.

# "Bu dəfə qaçışın yoxdur" - Könül Kərimovadan oğluna

***Əməkdar artist Könül Kərimova oğlu Rəşadla bağlı paylaşım edib.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, müğənni övladını ad günü münasibətiylə təbrik edərək, onla bağlı arzularını yazıb.

Kərimova bildirib ki, ən böyük arzusu bu il Rəşadı evləndirməkdir: ”Yaraşıqlı oğlum, doğum gününü təbrik edirəm. Allah səni xətadan, bəladan, yanlış dostlardan uzaq eləsin. Canın sağlam, ömrün uzun olsun. Ən əsası bu il toyunu edək. Bu dəfə məndən qaçışın yoxdur”.

Qeyd edək ki, Rəşad da anası kimi ifaçıdır.



# QHT Agentliyinin rəhbərliyi Türkiyədə görüşlər keçirib

***Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəhbərliyinin Türkiyənin paytaxtı Ankara şəhərinə rəsmi səfəri davam edir .Bu gün Agentlik rəsmiləri Türkiyə Daxili İşlər Nazirliyində, Vətəndaş Cəmiyyəti ilə əlaqələr Baş İdarəsində və Türkiyə Kızılay Cəmiyyətində olublar.***

İlk görüş Türkiyə Daxili işlər nazirinin müavini (vətəndaş cəmiyyəti təsisatları ilə iş üzrə) Mehmet Ersoy ilə keçirilib. Qonaqları salamlayan Mehmet Ersoy iki ölkə QHT-ləri arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb, Türkiyə Daxili İşlər Nazirliyi və QHT Agentliyi arasında əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edib.

Görüşdə Agentliyin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev çıxış edərək Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına dövlətin verdiyi dəstək, Türkiyə ilə bu sahədə əməkdaşlığın perspektivləri, gələcəkdə birgə tədbirlərin və layihələrin faydası haqqında fikirlərini bölüşüb.

Sonra Agentliyin rəhbərliyi Vətəndaş Cəmiyyəti ilə əlaqələr Baş İdarəsində olublar. İdarənin rəisi Erkan Kılıç, habelə qurumun rəhbər şəxsləri qonaqlara fəaliyyətləri barədə geniş təqdimat ediblər. Təqdimatda Baş İdarənin vəzifələri, QHT-lərə dövlət dəstəyi, Türkiyənin bütün ərazilərində QHT-lərlə işin təşkili, onların fəaliyyətinin əlaqələndirilməsi, QHT-lər üçün göstərilən xidmətlər və həyata keçirilən digər mühüm işlər haqqında məlumat verilib. Görüşdə qonaqları maraqlandıran suallar cavablandırılıb.

Agentliyin icraçı direktoru Aygün Əliyeva Baş idarənin rəhbərliyinə təşəkkür edərək, Azərbaycanda və Türkiyədə QHT-lərlə işə məsul olan aidiyyəti qurumlar arasında dialoqun, əməkdaşlığın və birgə fəaliyyətin əhəmiyyətini vurğulayıb. Bu fəaliyyətin genişləndirilməsi üçün müştərək layihələrin və proqramların reallaşmasının iki ölkənin tarixi köklər üzərində inkişaf edən dostluq və qardaşlıq münasibətlərinə də müsbət töhfə verəcəyini bildirib.

Günün sonunda nümayəndə heyətinin Türkiyə Kızılay Cəmiyyətində görüşü keçirilib. Cəmiyyətin rəhbəri İbrahim Altan qonaqlara rəhbərlik etdiyi təşkilatın tarixi, iş prinsipi, layihə və proqramları, müxtəlif ölkələrdə, o cümlədən Azərbaycandakı fəaliyyəti barədə geniş məlumat verib. Bildirib ki, Cəmiyyət Türkiyənin ən böyük ictimai təşkilatıdır.

Səfər bir neçə gün davam edəcək.

# Vətən müharibəsi veteranlarının siyahısı hazırlanır

***”Vətən müharibəsi iştirakçılarına “Müharibə veteranı” adının verilməsi ilə bağlı dövlət başçısı tərəfindən 2021-ci ilin sonlarında Sərəncam imzalanıb. Hazırda bu Sərəncama uyğun olaraq iş aparırıq”.***

”Unikal” xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deyib. Onun sözlərinə görə, sərəncamda prosedurlar müəyyən olunub.

“Vətən müharibəsi iştirakçılarının siyahısı həmin şəxslərin qulluq keçdiyi qurumlar tərəfindən müəyyən olunur. Nazirlər Kabineti ilə razılaşdırıldıqdan sonra Nazirliyin “Zəfər” altsistemінə daxil edilir. Həmin altsistemə daxil edildikdən sonra bu şəxslərə dövlət başçısının təsis etdiyi veteran təqaüdünün təyinatını aparırıq. Siyahıların hazırlanması və Nazirlər Kabineti ilə razılaşdırma prosesi davam edir. Yaxın vaxtlarda təyinatların və ödənişlərin aparılması təmin ediləcək”.

# Əbülfəs Qarayevlə Elmar Məmmədyarovun növbəsi...

## "Səlim Müslümov nümunəsi" iki eks-nazirlə bərabər başqa kimlərin yuxusunu qaçırır?

***Bu günlərdə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) sabiq Aparat rəhbəri Rasim Quliyev məhkəmənin hökmü ilə 3 il müddətinə azadlıqdan məhrum edildikdən sonra bəzi KİV-lər yazdılar ki, həmin məhkəmə qərarı Azərbaycandakı hakimiyyət strukturlarında son illər ərzində müşahidə olunan bir maraqlı tendensiyanın özünə birdəfəlik yer etməsindən xəbər verir: Azərbaycanda iri ranqlı məmurlar öz ətraflarında müavin, aparat rəhbəri, baş məmar, baş mühasib və s. adlar altında müxtəlif çəkili “qurbanlıqlar” saxlayırlar. Vaxtı gələndə, özləri də az-çox çirkaba bulaşmış və “yağlanmış” həmin bu “qurbanlıq”lar asanlıqla güdaza verilir, nazir, komitə sədri və s. isə “süddən çıxan ağ qaşıq” kimi, çəkilib durur bir kənarda.***



Əslində bunu təsdiq edən saysız-hesabsız nümunələr də göstərmək olar. Məsələn, yazının əvvəlində haqqında danışılan Rasim Quliyevi vəzifəyə gətirmiş Hacıbala Abutalıbov, yəni Bakının sabiq meri... ”Azpolitika.info” qeyd edir ki, bu adamın dövründə Bakı qarış-qarış satıldı. Tikintiyə icazədən tutmuş iri təmir və tikinti layihələrinin icrasına qədər elə bir sahə olmadı ki, orada korrupsiya, yeyinti, rüşvət faktları olmasın. Hamı da yaxşı bilirdi ki, bütün bu əməllər şəxsən Abutalıbovun iştirakı və payı olmadan reallaşa bilməzdi. Sonda nə oldu? Hansısa anlaşılmaz, müəmmalı və Azərbaycan reallıqları baxımından gülünc bir cinayət işi ilə Abutalıbovun Aparat rəhbəri Rasim Quliyev “qurbanlıq” verildi”. Sonda isə ona cəmi 3 il iş verildi!

Yaxud sabiq mədəniyyət naziri Əbülfəs Qarayev. Onun rəhbərlik etdiyi qurumda ötən il keçirilən əməliyyatda tenderlərdə baş verən açıq-aşkar, 10 milyonlarla manatla hesablanan mənimsəmələrdən tutmuş musiqi məktəblərində yığılan nisbətən xırda rüşvətə qədər saysız-hesabsız cinayət faktları üzə çıxarıldı və sübuta yetirildi. Nəticədə, kim həbs olundu? Əbülfəs Qarayevin müavini Rafiq Bayramov. 8 il müddətinə azadlıqdan məhrum edilən Bayramov məhkəmədəki ifadəsində deyib: “Mən saxlanılanda vəzifə səlahiyyətlərimi aşma, mənimsəmədə ittiham olunmuşam. Qeyd etməliyəm ki, mən nazir müavini olsam da, imza səlahiyyətim olmayıb, maddi-məsuliyyətli şəxs olmamışam.” Bunun açması o deməkdir ki, hər şey nazirin səlahiyyətində, nəzarətində və onun imzası ilə olub. Ancaq məlum olduğu kimi, Ə.Qarayevə “gözün üstə qaşın var” deyən yoxdur. R.Bayramov da daxil omaqla onun bir neçə “qurbanlıq”ları isə məhbus həyatı yaşayır...

Və ya sabiq xarici işlər naziri Elmar Məmmədyarov... Hüquq-mühafizə orqanlarının XİN-də keçirilən əməliyyatı ortaya çoxsaylı korrupsiya və vəzifə cinayətlərinə dair faktlar çıxardı. Bununla yanaşı, mətbuatda nazirin ABŞ-da 4.2 milyon dollara mənzil aldığı faktlarla ortaya qoyuldu və sonradan Məmmədyarovun özü də bunu inkar etmədi. XİN-də aparılan araşdırmalar isə hər şeyin nazirin bilgisi, razılığı və iştirakı ilə baş verdiyini təsdiqlədi. Lakin Məmmədyarov da hazırda digər həmkarları kimi, öz kefindədir. Əvəzində, nazirliyin bir neçə yüksək rütbəli təmsilçisinə cinayət işi açıldı. Ancaq maraqlıdır ki, məhkəmə bu şəxslərə yalnız şərti iş kəsməklə və vurulmuş bir neçə milyonluq ziyanı ödətməklə kifayətləndi...

Bu nümunələrin sayını kifayət qədər artırmaq olar, ancaq gərək yoxdur. Və yerli media qənaətində haqlıdır - bir sıra iri məmurlar ətraflarında saxladıqları ”qurbanlıqlar”ı güdaza verməklə özləri üçün ”sudan quru çıxmaq” üçün zəmin hazırlayırlar.

Lakin nəzərə alaq ki, bir də ortada ”Səlim Müslümov nümunəsi” var. Keçmiş Əmək və Əhalinin Sosial Müdafiəsi naziri 2018-ci ildə vəzifəsindən uzaqlaşdırıldı və barəsində çoxsaylı rüşvət, korrupsiya iddialarının olmasına baxmayaraq postunu itirsə də azadlığını qoruyub saxlaya bildi. Ancaq bu 3 il çəkdi və 2021-ci ilin fevralında Səlim müəllim çoxsaylı korrupsiya faktlarına görə özünün ”sağ əli” - Aparat rəhbəri Əjdər Cəbiyevlə birgə həbs edildi.



S.Müslümovun başına gələnlərin istisna hal olduğunu düşünmək sadəlövhlükdür; istər cəmiyyətdə, istərsə də medaiada gözlənti oxşar təcrübənin bir çox sabiq iri məmurlara da - misal üçün, elə Əbülfəs Qarayev və yaxud Elmar Məmmədyarova, Hacıbala Abutalıbov və ya Etibar Pirverdiyevə, Nazim İbrahimova, ya da Ziya Məmmədova... - tətbiq edilə biləcəyi yönündədir.

Üstəlik, bu sadəcə ictimai rəydəki gözlənti də deyil. Məsələ burasındadır ki, əksər eks-nazirlərin, komitə sədrlərinin, icra başçılarının da daim səksəkə içində olduğuna dair iddialar var. Belə sabiq məmurların hər an ”Səlim Müslümov nümunə”si ilə üzləşmək qorxusu yaşadıqları deyilir, odur ki gözlərinə yuxu getmədikləri bildirilir.

Onları qınamalı da deyil - ortada bir örnək varsa, həmin örnəyin təkrarlanma ehtimalı da var. Elə bunu da yalnız biz yox, həm də təcrübə, ən əsası isə praktika deyir...

***Sənan Mirzə***

# Məmurların yaratdığı yeni təhlükə

## Həm yeni işsizlər ordusu yarana, həm də milyonlarla manatlıq qazancdan məhrum ola bilərik - Səbəbi...

***Qərb və Rusiya arasındakı yeni "soyuq savaş"ın bizi ilgiləndirən bir tərəfi də var. Məsələ burasındadır ki, hələ 4 il əvvəl ABŞ, Kanada, Avstraliya, Norveç və Avropa İttifaqının bəzi ölkələri Rusiyaya qarşı meyvə-tərəvəz, ərzaq məhsulları sahəsində də sanksiyalar tətbiq etmişdi.***

Rusiya da cavab sanksiyalarına əl atdı və idxalda Qərbin həmin dövlətlərini başqa ölkələrlə əvəzlədi.

International Trade Centre-in son hesabatına görə, 2014-cü ildə Rusiya xarici ölkələrdən 5,4 milyard dollarlıq meyva idxal etmişdi. İdxalda əsas yerləri Ekvador, Türkiyə, Çin, Polşa və İspaniya tuturdular.

Ötən il isə idxal 5,2 milyard dollar həcmində olub. Rusiyaya meyvə satışında ilk yerlərdə Ekvador, Türkiyə, Çin, Azərbaycan və Misir olublar.

2021-ci ildə Rusiyanın idxal etdiyi 1,92 milyard dollarlıq tərəvəzin satıcıları arasında isə lider ölkələr Çin, Azərbaycan, Belarus, İsrail və Misirdir.

Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyaların fasiləsiz ağırlaşması gözlənilən effekti verməyib, çünki Moskva idxal sahəsində alternativləri tapıb.

Situasiya Azərbaycanın da xeyrinədir, çünki Rusiyaya meyvə-tərəvəz satışında lider mövqelərə malikdik.

Lakin...

Bu günlərdə yerli media yazdı ki, Azərbaycanın Tovuz və Şəmkir rayonlarında kiçik fermerlərin əksəriyyəti əsas dolanışıq yeri olan və son 2-3 ilədək yaxşı gəlir gətürdükləri istixanalarını sökür. Fermerlər deyirlər ki, yanacaq, gübrə və digər xərclər artıb, təsərrüfatları saxlaya bilmirlər və çəkdikləri xərc qazancı üstələyir. Yerli bazarda pomidora tələbat azdır, Rusiya bazarında isə idxal pomidoru son illər ucuzlaşdığından qiymət sərfəli deyil. Bir yandan da kiçik fermerlər son illər fəaliyyətə başlayan dördüncü nəsil istixanalara - aqroparklara rəqabətdə uduzurlar. Buna görə də vaxtilə 200-500 min dollar xərc çəkib qurduqları istixanaları ləğv etmək məcburiyyətində qalıblar.

Problemin kökündə isə yeni nəsil istixanalar - aqroparklar dayanır. Həmin istilikxanalarda müasir avadanlıqlar quraşdırılıb. Hansı ki, yanacağa qənaət edir, ənənəvi istixanalardan fərqli olaraq əlavə xərclər olmur. Bu istixanalarda yetişdirilmiş pomidorlar da ucuz satılır. Buna görə də belə aqroparklar kiçik fermerləri - fərdi istixana sahiblərini sıxışdırıb bazardan çıxarır. Məsələn, adının mətbuatda açıqlanmasını istəməyən şəmkirli fermer isə danışıb ki, təxminən 7-8 il əvvəl istixana qurmağa təxminən 500 min dollardan çox vəsait sərf edib və son illərədək yaxşı qazanıb. İndi isə gəlir gətirmədiyindən istixananı ləğv edir. "Ötən il Rusiyada pomidor satılmadı, məhsul xarab olmasın deyə qəpik-quruşa verdik, nəticədə ziyana düşdük. Amma aqroparklar üçün sərfəlidir, çünki maya dəyəri aşağıdır", - şəmkirli fermer bildirib.

Fermerlərin dediklərindən aydın olur ki, məsələdən icra hakimiyyətləri də xəbərdardılar. İstixana sahiblərinin iştirakı ilə məsələ müzakirə edilib və vəziyyətdən çıxmaq üçün müəyyən kömək təklif edilib. Amma əvvəl-axır qaza, işığa və s. görə yaranmış borc ödənilməlidir. Fermerlərin bəziləri istixanadakı avadanlıqları kəsib satmaqla borcun bir hissəsini ödəməyə çalışır.

Qeyd edək ki, iri aqroparkların sürətlə fərdi istixanaları sıxışdırıb müflis edəcəyini kənd təsərrüfatı üzrə ekspertlər daha əvvəl proqnozlaşdırmışdılar. Göründüyü kimi, həmin proqnozlar doğrulur. Nəticədə həm minlərlə insan üçün iş yeri olan, həm də ölkəyə milyonlarla manat gəlir gətirən fərdi istilikxanalar sıradan çıxır. İcra hakimiyyətləri isə həmin kiçik fermerlərin dərdinə konkret əlac eləməkdə həvssizdir. Bəzi iddialara görə bunun səbəbi aqroparkların bir çox hallarda həmin icra hakimiyyətlərinin başçılarına, ya da daha yüksək çinli məmurlara məxsus olmasıdır.

Belə iddiaları təsdiqləyən faktlar da var. Məsələn, Şəmkir rayonunda inşa edilən "Şəmkir Aqropark" Logistika Mərkəzinin vaxtilə rayonu kurasiya edən sabiq Vergilər naziri Fazil Məmmədovun yaxın adamları - hazırda həbsdə olan sabiq icra başçısı Alimpaşa Məmmədov və eks-nazirin müşaviri işləmiş Qüdrət Seyfullayev adlı şəxslərin nəzarəti ilə tikildiyi, elə onların nəzarəti altında da işlədildiyi hər kəsə bəlli idi.

İstənilən halda, şübhəsiz ki, yeni nəsil istilikxanaların inşası həm zamanın tələbidir, həm də iqtisadi zərurətdir. Lakin elə etmək lazımdır ki, bu fərdi istilikxanalar, kiçik fermerləri sıradan çıxarmasın. Axı belədə bölgələrdə işsizlik daha da arta, həm də müəyyən xarici bazarlara meyvə-tərəvəz idxalımız kəskin azala bilər. Unutmayaq ki, biz bu məhsullar baxımından Rusiya bazarındakı liderliyi uzun illər boyunca elə fərdi istilikxanalar hesabına qazanmışıq...

***Z. Məmmədli***



# "Qırmızı diplomun heç bir üstünlüyü yoxdur" - Ədalət Muradov



***"Bu gün qırmızı diplom əmək bazarında heç bir üstünlük təmin etmir".***

"Unikal" xəbər verir ki, o bu barədə fikirlərini sosial şəbəkə hesabında yazıb. Rektorun sözlərinə görə, Sovet dönəmində müəyyən tələblərə cavab verən məzunlara qırmızı (fərqlənmə) diplom verilirdi:

"Qırmızı rəngin də xüsusi mənası vardı. Eləcə də, qırmızı diplom digərləri ilə müqayisədə onun sahiblərinin daha üstün olduqlarını göstərirdi. Vərdiş və bacarıqlar əvəzinə, qiymətlər uğrunda tələbələrdə yanlış motivasiya yaradır. Amma buna baxmayaraq, hələ də qırmızı diplom verilir".

# Bakıda polis nəzarətində olan məktəb direktoru qaçdı

***Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) rüşvət almaqda təqsirləndirilən sabiq məktəb direktoru Cavad Səfərovun barəsində axtarış elan edib.***

O, Azərbaycan Cinayət Məcəlləsinin 311.3.3-cü (Külli miqdarda rüşvət alma) maddəsi ilə axtarışa verilib.

Qeyd edək ki, vətəndaş Ruxsarə Babayeva Sabunçu rayonu, F.Bayramov adına 22 saylı tam orta məktəbin direktoru vəzifəsində işləmiş C.Səfərov barədə hüquq mühafizə orqanlarına müraciət edib. O bildirib ki, C.Səfərov məktəbə işə düzəlmək üçün ondan rüşvət alıb. Məktəb direktoru bu müraciət əsasında saxlanılıb.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan araşdırma zamanı C.Səfərovun əvvəllər direktor vəzifəsini icra etdiyi 22 saylı tam orta məktəbin təsərrüfat işləri üzrə müdiri vəzifəsinə təyin edilməsi ilə bağlı ona müraciət edən tanışı R.Babayevadan xidməti otağında 6 000 manat məbləğində pul vəsaitini rüşvət qismində istəməsinə və həmin məbləğin 5 500 manatını almaqla xadimə vəzifəsinə təyin edib faktiki olaraq təsərrüfat işləri üzrə müdir vəzifəsini icra etməsinə qanunsuz olaraq şərait yaratmasına əsaslı şübhələr müəyyən edilib.

Daha sonra onun barəsində polisin nəzarəti altına verilmə qətimkan tədbiri seçilib.

C.Səfərovun cinayət işi üzrə ibtidai istintaq yekunlaşdırılaraq Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib və hakim İradə Həsənzadənin icraatına verilib. Lakin o, məhkəmə proseslərinə gəlməyib və barəsində axtarış qərarı çıxarılıb. Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində baxılan cinayət işinin icraatı dayandırılıb.

# Bakıda fevral ayında jurnalistlər üçün təlim keçiriləcək

***JMMP (Journalism & Media Management Projects - Jurnalistika və Media İdarəçiliyi Layihələri) təşəbbüs qrupu Bakıda 10-13 fevral, 2022-ci il tarixində yayım və rəqəmsal media sahəsində peşəkar vərdişlərini inkişaf etdirmək istəyən jurnalistlər üçün təlim keçirəcək.***

Təlim təşəbbüs qrupunun "Yayım mediasında və rəqəmsal platformalarda storitellinq (hekayəçilik), hədəf auditoriyası və nəticələrin ölçülməsi" layihəsi çərçivəsində həyata keçirilir.

Dörd günlük nəzərdə tutulmuş təlim proqramı "Storitellinq (Hekayəqurma və söyləmə) texnikasının yayım jurnalistikası / rəqəmsal mediada tətbiqi və "Google Analitics"in onlayn mediada yeri" mövzusunda olacaq. Təlimçilər USAID-in beynəlxalq media mentorluq dərəcəsini almış jurnalistlər Samirə Həsənli və Ramil Zeynallı olacaq.

Təlimdə nəzəri və praktiki bilgilər ən son beynəxalq təlim standartlarına uyğun hazırlanıb. Seçiləcək 10 jurnalist təlimin sonunda praktiki media məhsulları hazırlayacaq. Yerlər məhduddur.

Təlimdən qeydiyyatdan keçmək üçün bu linkə daxil ola bilərsiniz:

https://bit.ly/3H4CICB

Təlim üçün son müraciət tarixi 8 fevral, 2022-ci ildir.

# Prezident İnzibati Xətalar Məcəlləsinə dəyişikliyi TƏSDİQLƏDİ



***Prezident İlham Əliyev "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanunu təsdiqləyib.***

"Unikal" xəbər verir ki, dəyişikliyə əsasən, əmək qanunvericiliyinin əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları, əmək şəraiti, iş və istirahət vaxtı, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi, qadınların və yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri ilə bağlı tələblərinə əməl olunması barədə müvafiq icra hakimiyyəti orqanının icrası məcburi olan qərarlarının və göstərişlərinin əmək münasibətlərinin iştirakçıları tərəfindən icra edilməməsinə görə vəzifəli şəxslər 1000 manat məbləğində, hüquqi şəxslər 2 000 manat məbləğində cərimə ediləcək.

# Vilayət Eyvazov təqaüdə göndərdiyi generallarla görüşdü



***Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov xidmətdə olmalarının son yaş həddi ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) Katibliyinin sabiq rəisi polis general-mayoru Səfər Əliyevi və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində cinayətkarlıq və digər təhlükəli cinayət növləri il mübarizənin əlaqələndirilməsi üzrə Büronun direktor müavini polis general-mayoru Əkbər Yusifovla görüşüb.***

"Unikal" xəbər verir ki, yolasalma mərasimində nazir uzun illər daxili işlər orqanlarında çalışmış generallara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

V.Eyvazov görüşdə hər iki şəxsə zəngin təcrübələrini gənclərlə bölüşəcəklərinə, onların Vətənə, dövlətçiliyə, anda sədaqət ruhunda tərbiyə olunmalarına, cəmiyyətdə polisin işgüzar nüfuzunun qorunub saxlanılmasına yaxından kömək edəcəklərinə əminliyini ifadə edib.

# Buster doza vurduranların sayı artıb

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə vurulan peyvəndlərin sayı açıqlanıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə 29 515 vaksin vurulub. Belə ki, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 2 565, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 2 201, buster doza üzrə vaksinasiya olunanların sayı isə 24 749 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 11 905 588, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 222 566, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 739 905, buster doza üzrə vaksinasiya olunanların sayı isə 1 946 117 təşkil edir.


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500


# Prezidentlə xanımı Tədris və Xidmət Kompleksinin açılışında

***Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qeyd edək ki, Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində indiyədək təhsil ocaqları olmadığından şagirdlər yaxın ərazilərdəki tədris müəssisələrində oxumaq məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. Müraciətlər araşdırılıb, bu massivlərdə uşaqların və məktəblilərin təhsil ala biləcəyi məktəb və məktəbəqədər müəssisələrin olmadığı müəyyən edilib. Bu səbəbdən 2020-2021-ci illərdə Heydər Əliyev Fondun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunub.

Kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazi abadlaşdırılaraq müxtəlif növ ağaclar əkilib, həmçinin istirahət parkı salınıb.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış oldular.

Bildirildi ki, 1400 şagird yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıb.

Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondu təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib.

Bağça ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yaradılıb. Uşaq bağçası zəruri mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı ərazidə oyun və idman meydançası da salınıb.

Tədris və Xidmət Kompleksinin ərazisində gündəlik 100 pasiyentə xidmət göstərmək imkanı olan tibb məntəqəsi və 150-yə qədər vətəndaşa xidmət göstərə biləcək poçt məntəqəsi inşa edilib.

Onu da qeyd edək ki, elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır. Fondun uğurla icra olunan layihələrindən biri "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksi kimi layihələrin icrası ilə Heydər Əliyev Fondu Prezident İlham Əliyevin konseptual təhsil strategiyasının həyata keçirilməsinə əsaslı töhfə verir.

# Milli Məclisdə Komitələrin hesabatları yekunlaşdı

***Milli Məclisin yaz sessiyası üzrə ilkin komitə iclasları yekunlaşıb.***

Parlamentin hər bir komitəsi ötən payız sessiyasında görülən işlər haqqında hesabatı təqdim edib və yaz sessiyası üzrə İş planının müzakirəsini həyata keçirib. İlkin iclaslardan sonra Milli Məclisin yaz sessiyasının ümumi İş planı üzvlərə təqdim ediləcək.

Fevralın 1-də keçiriləcək ilk plenar iclasın gündəliyinin isə yaxın günlərdə ictimaiyyətə təqdim olunacağı gözlənilir.

Qeyd edək ki, Milli Məclisdə 15 komitə fəaliyyət göstərir.

# Əhməd İsmayılov Cahangir Məmmədli ilə görüşdü

***Yanvarın 27-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, professor Agentliyin ölkə mediasının inkişafına yönələn fəaliyyətini, "Media haqqında qanun"un geniş ictimai müzakirələrini yaxından izlədiyini bildirib. O, artıq



parlamentin müzakirələrindən keçmiş qanun layihəsinin ölkə mediasının həyatında yeni keyfiyyət mərhələsinin əsasını qoyacağını vurğulayıb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bu il gerçəkləşdiriləcək yeni layihələr və "Media haqqında qanun"dan irəli gələn məsələlər barədə ətraflı bəhs edib.

Görüşün sonunda Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov 80 illik yubileyi münasibəti ilə professor Cahangir Məmmədlini təbrik edib.

# Son sutkanın yoluxma statistikası

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3361 yeni yoluxma faktı qeydə alınıb, 1132 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 643 509 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 620 182 nəfər müalicə olunaraq sağalıb, 8 664 nəfər vəfat edib, aktiv xəstə sayı 14 663 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 923, ötən müddət ərzində isə ümumilikdə 6 107 416 test aparılıb.

# TV-lərimiz HD yayıma keçir, bunun üçün insanlar... - MTRŞ sədri danışdı

***Bu gündən etibarən, "Azerspace-1" peykindən yayımlanan Azərbaycan televiziya kanalları HD (High Definition - yüksək dəqiqlikli) formatda yayıma keçəcək.***

Bu, Milli Televiziya və Radio Şurası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, nazirliyin tabeliyində olan "Azərkosmos", "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi və Dövlət Radiotezliklər İdarəsinin birgə razılığına əsasən yerli televiziya kanallarının yayımında təsvir keyfiyyətinin daha üstün səviyyəyə gətirilməsi məqsədilə həyata keçirilir.

"Unikal"ın məlumatına görə, məsələ ilə bağlı Trend-in suallarını cavablandıran Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov HD formatına keçidin təfərrüatlarını açıqlayıb.

İ.Səttarov bildirib ki, hazırda Azərbaycanda yerüstü yayım dövlət tərəfindən dəstəklənir və Azərbaycanın bütün əhalisi yerüstü yayım ilə əhatə olunur.

"Azərbaycan kanalları ölkə ərazisində yerüstü yayım ilə pulsuz yayımlanır, insanlar da sadə antena ilə bu kanallara baxa bilər, yəni bu, dövlət tərəfindən təmin olunur. Peyk yayımı vasitəsilə televiziyaların izlənməsi isə tamaşaçıların könüllü seçimidir. Yəni, hər kəsin yerüstü yayıma baxmaq imkanı peyk yayımında HD formatına keçiddən sonra da olacaqdır", - deyə İ.Səttarov vurğulayıb.



O qeyd edib ki, ölkəmizdə ailə təsərrüfatlarının az faizində peyk tunerləri HD formatını dəstəkləməyə bilər.

"Bu faiz çox aşağı olacaq. Ancaq kimlərin ki, peyk tunerləri HD formatını dəstəkləməyəcək, onlar yenə də yerüstü yayımla təmin ediləcəklər və televiziya kanallarına yerüstü yayım vasitəsilə baxa biləcəklər. Yəni insanlar fikirləşməsinlər ki, HD formatına keçiddən sonra onlar televiziyasız qalacaqlar", - deyə qeyd edib.

MTRŞ sədri vurğulayıb ki, yanvarın 28-də HD formatına keçiddən sonra əhali öz tunerlərini yenidən tənzimləməlidir. Bununla bağlı noyabr ayından əhali maarifləndirilir.

HD formatına keçidin səbəbindən danışan İ.Səttarov vurğulayıb ki, hazırda Azərbaycanda peykdən HD formatında yayımlanan cəmi dörd televiziya kanalı var.

"Qalan kanallar peykdə ancaq SD formatında yayımlanırlar. Eyni zamanda, əhalimiz tərəfindən kifayət qədər izlənilən qonşu ölkələrin telekanallarının böyük əksəriyyəti artıq HD yayımı aparmaqdadılar. Həmin kanallar ilə müqayisədə bizim telekanallar təsvirin keyfiyyətində uduzur. Bu addım yerli televiziyaların xarici telekanalla rəqabət aparmağında müəyyən dərəcədə kömək edəcək və ən əsası, Azərbaycan vətəndaşlarını daha keyfiyyətli təsvirlə təmin edəcək", - deyə MTRŞ sədri vurğulayıb.

# Azərbaycanda pensiya yaşı azaldılacaq? - Açıqlama

***"Qadınların pensiya yaşının 63-də saxlanacağı barədə iddialar doğru deyil".***

Bunu Modern.az-a açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. Deputat qeyd edib ki, ümumiyyətlə, pensiya yaşı ilə bağlı məsələlər hazırda aktual deyil.

Xatırladaq ki, ölkədə pensiya yaşının azaldılması, qadınların pensiya yaşının 63-də saxlanması haqqında müxtəlif məlumatlar yayılıb.

Qeyd edək ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Belə ki, Azərbaycanda 1 iyul 2021 - 30 iyun 2022 tarixində kişilərin pensiya yaşı 65 il , qadınların pensiya yaşı isə 62 il 6 ay olacaq. 1 iyul 2022 - 30 iyun 2023 tarixində isə kişilərin pensiya yaşı 65 il, qadınlar üzrə 63 il olacaq.



# Xəzərdə qanunsuz balıq ovlayan 7 nəfər saxlanıldı

***Öz qanunazidd əməlləri ilə ölkəmizdə keçirilən ekoloji sağlamlığın yaxşılaşdırılmasına və ətraf mühitin mühafizəsinə yönələn genişmiqyaslı tədbirlərə kölgə salan şəxslərə qarşı prokurorluq orqanları tərəfindən ardıcıl və təxirəsalınmaz mübarizə tədbirləri davam etdirilir.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Xəzər dənizində qanunsuz balıq ovunun edilməsi ilə bağlı daxil olmuş müraciət əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılmışdır.



Aparılmış araşdırmalar zamanı Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının Xəzər dənizində qanunsuz ovunu etmiş şəxslərin idarə etdikləri üzmə vasitəsində nərə balıqları aşkar olunduğuna görə 7 nəfər şəxs barəsində inzibati xəta haqqında iş üzrə icraat başlanılaraq baxılması üçün aidiyyəti səlahiyyətli quruma göndərilmişdir.

Eyni zamanda Xəzər dənizində qanunsuz balıq ovu etmiş şəxslərə məxsus özüyeriyən motorlu üzmə vasitəsilərində dəyəri 1.760 və 6.820 manat təşkil edən nərə balıqların aşkar edilməsi faktına görə 2 cinayət işi başlanılaraq aidiyyəti üzrə daxili işlər orqanlarının istintaq qurumlarına göndərilmişdir.

# 4-cü doza bu halda tələb olunacaq

***"Azərbaycanda epidemioloji vəziyyətdən asılı olaraq, peyvədin 4-cü dozası tələb oluna bilər".***

Bunu açıqlamasında həkim-infeksionist Nicat Əzimli deyib. Həkimin fikrincə, 3 doza vaksin effektiv spesifik immun cavabın formalaşması üçün yetərlidir:

"Lakin bəzən növbəti dozanın tətbiqinə də ehtiyac yarana bilər. Bu da fərdin orqanizminin vəziyyəti, risk faktorları nəzərə alınaraq təyin olunur".

Nicat Əzimli qeyd edib ki, koronavirusa yoluxmaların sürətlə artmasının əsas səbəbi hazırda yayılmaqda olan hiper-kontaqioz xüsusiyyətli "Omicron" variantıdır. Həkim deyib ki, qarşıdakı bir neçə həftə ərzində yoluxmaların sayında artım davam edəcək.

Qeyd edək ki, son günlər dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da virusa yoluxma halları artmaqdadır.

Son sutka ərzində Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 3361 yeni yoluxma faktı qeydə alınıb, 1132 nəfər müalicə olunaraq sağalıb.

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

# Paşinyan Türkiyəyə gedir

***Ermənistanın baş naziri Nikol Paşinyan Türkiyəyə səfər edə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Mərkəzi Afrika Cümhuriyyətindən olan həmkarı Sylvie Baipo-Temonla birlikdə keçirdiyi mətbuat konfransında bu məsələ ilə bağlı danışıb.

Nazir qeyd edib ki, Türkiyə-Ermənistan əlaqələrinin normallaşması üçün bu kimi addımlar lazımdır: "Paşinyan Türkiyə səfəri ilə bağlı söz verib. Xüsusi nümayəndələrin Moskvada ilk görüşü olub. Biz mütəmadi olaraq telefonla əlaqə saxlayırıq. Fevral ayından etibarən qarşılıqlı uçuşlar başlayacaq. Antaliya Diplomatiya Forumunda 50 nazir, 30 beynəlxalq təşkilatın nümayəndəsi iştirak edəcək. Hər kəsin səsinin eşidilməsini istəyirik. Biz buraya Ermənistan nümayəndələrini də dəvət etmişik. Ermənistanın baş naziri Nikol Paşinyan da gələcəyini deyib. Gəlsələr, məmnun olarıq".

Qeyd edək ki, Paşinyan Türkiyə tərəfinin təklifini yüksək qiymətləndirdiyini, bunu dəyərləndirəcəyini demişdi.

# Avropada yaşayan bloger axtarışa verildi

***Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) Avropada yaşayan azərbaycanlı mühacirlər - bloger Sadıqlı Tural Əlövsət oğlu və jurnalist Hüseynov Fikrət Nurəli oğlu barəsində axtarış elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı ŞBPİ-nin saytında məlumat yerləşdirilib.

Bildirilib ki, T.Sadıqlı barəsində Azərbaycan Cinayət Məcəlləsinin 178.3.1-ci (Dələduzluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə), F.Hüseynov barəsində isə 178.3.1-ci (Dələduzluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 318-1.2-ci (Qanunsuz miqrasiyanın təşkili) 320.1-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə axtarışa verilib.

Qeyd edək ki, T.Sadıqlı Almaniyada, F.Hüseynov isə Niderlandda yaşayır.

# DOST mərkəzlərində "onlayn növbə" xidməti istifadəyə verildi

***DOST mərkəzlərində "onlayn növbə" və "surdotərcümə" xidmətləri istifadəyə verilib.***

"Unikal" xəbər verir ki, artıq vətəndaşlar DOST mərkəzlərində xidmətlərdən "onlayn növbə" ilə yararlana bilərlər.

Bunun üçün DOST Agentliyinin rəsmi saytına daxil olmaq və əsas səhifədə qarşınıza çıxan "onlayn növbə" düyməsinə basmaq lazımdır. Ardınca açılan səhifədə xidmət almaq istdəyiniz mərkəz, xidmət istiqaməti, xidmət tarixi və vaxtını seçməklə, eləcə də, FİN nömrəsi və şəxsiyyət vəsiqəsinin nömrəsini daxil etməklə onlayn növbə əldə edə bilərsiniz.

Bundan əlavə, "onlayn növbə" götürərkən, eşitmə və nitq məhdudiyyətli şəxslər üçün surdotərcümə xidmətini seçmək də təklif olunur. Qeyd edək ki, surdotərcümə xidmətindən yararlanmaq üçün "onlayn növbə" götürmək mütləqdir.




## Azərbaycanda “Omicron” ştamı sürətlə yayılmağa başlayıb - RƏSMİ

***Azərbaycanda koronavirusun “Omicron” ştamı sürətlə yayılmağa başlayıb.***

Kliniki Tibbi Mərkəzin Mətbuat xidmətindən ”Unikal”a verilən məlumata görə, bu həftə ərzində 8 114 nəfər koronavirusa yoluxub, onlardan 53-ü dünyasını dəyişib.

Mərkəzin baş infeksionisti Fərrux Sədirov mövcud durumla bağlı ictimaiyyətə müraciət edərək bildirir ki, bəzi insanlarda arxayınlıq yaranıb və bu çox təhlükəlidir:

“İki doza peyvənd olunanlar arxayınlaşmasınlar, çünki peyvənddən 5 ay sonra immunitet zəifləməyə və virusu unutmağa başlayır. “Buster” (üçüncü) dozaya isə həm gücləndirici, həm də xatırlatma dozası deyə bilərik. Çünki “buster” doza qəbul olunanda bədən virusu xatırlayır və ona qarşı dayanıqlı hala gəlir”.

Baş infeksionist əlavə edib ki, aparılan tədqiqatların nəticələrinə görə, “Omicron”a qarşı iki doza vaksin 25 faiz qoruma yarada bilirsə, üçüncü dozadan sonra bu rəqəm 70 %-in üzərinə çıxır:

“Omikron”dan qorunmanın əsas çıxış yolu peyvəndlənmə olaraq qalır. “Buster” dozanı qəbul etmək və əsas qaydalara əməl etməklə həm özünüzü, həm də ailənizi qoruya bilərsiniz”.

## Nazir Kəlbəcərə nümayəndə təyin etdi

***Mədəniyyət Nazirliyinin Kəlbəcər rayonu üzrə nümayəndəsi vəzifəsinə təyinat olub.***

Nazirlikdən ”Unikal”a verilən məlumata görə, bununla bağlı mədəniyyət naziri Anar Kərimov əmr imzalayıb.

Əmrə əsasən, Xaliq Dağyunus oğlu Muxtarov nazirliyin Kəlbəcər rayonu üzrə nümayəndəsi vəzifəsinə gətirilib.

## ETSN yanında Məktəblilərin İctimai Şurası yaradılır

***Ekoloji mədəniyyətin və sağlam ekoloji mühitin formalaşmasında, ətraf mühitin mühafizəsi prosesində məktəblilərin aktiv iştirakını təmin etmək məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında “Məktəblilərin İctimai Şurası” yaradılır.***

“Unikal” xəbər verir ki, nazirlik təbiəti sevən, ətraf mühitin qayğısına qalan, təşəbbüskar, parlaq ideyalı və liderlik bacarıqlarına malik məktəbliləri Şuraya üzv olmağa dəvət edir.

Şuraya üzv olmaq istəyənlər sənədlərini (namizədlik barədə müraciət; şəxsiyyət vəsiqəsinin surəti; tərcümeyi-hal) 28 fevral 2022-ci il tarixinədək public@eco.gov.az poçt ünvanına təqdim edilə bilərlər.

“Məktəblilərin İctimai Şurası”na üzvlük barədə elan Nazirliyin rəsmi internet səhifəsinin “Elanlar” bölməsində yerləşdirilib.

# “Cırıq şalvarda gəzənlər, bu günləri 100 milyonların sahibidir”

### Razi Nurullayev: “Kimsə, xalqa yalan deyib, xalqın cibindən oğurlayıb, insanlara yuxarıdan aşağı baxıbsa, xalq onu bağışlamaz və bağışlamayacaq”

***Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayev ”Unikal” qəzetinə müsahibə verib. O, həyata keçirilən kadr dəyişiklikləri, məmurların yaşam tərzi və digər məsələlərə toxunub.***

***-Bir müddət əvvəl icra hakimiyyətlərinin ləğv edilməsi məsələsi müzakirə olunurdu. Belə ki, Prezident İlham Əliyevin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncamı məsələnin əhəmiyyətini yenidən gündəmə gətirmişdi. İcra hakimiyyətlərinin ləğv olunması gözlənilirmi?***

-Azərbaycan siyasi və qanunvericilik cəhətdən proqnoz verilə bilən ölkə deyil. Ona görə də Azərbaycanda dünyada baş verən hadisələrə, proseslərə uyğun olaraq cari vəziyyət dəyişir. Hələ elə bir dövlətə çevrilməmişik ki, 30-40 il qabağı düşünək və dərin dövlət prinsipləri ilə işləyək. Biz ola bilsin ki, o yolda gedirik. Hədım istəyir. Hansı bələdiyyə özünü idarə edib bu xalqı ağ günə çıxardıb? Bələdiyyə də büdcədən pul istəyir. O zaman həmin bələdiyyə bizim nəyimizə lazımdır? Bələdiyyələrin əvvəlki iki-üç çağırışında nə lazım idisə, bələdiyyələr satdı, yuxarılarla bölüşdü, məhv elədi.

İndi isə bələdiyyələrin özünü saxlaması üçün imkanları yoxdur. Sonuncu resurslarını - mədən vergilərini də Parlament qanuna dəyişiklik edib əllərindən aldı. Mən isə əleyhinə səs verdim və təsəllim bu oldu. Hamısı quru yurdda qalıblar. Bələdiyyələri icra hakimiyyətinin bir qoluna çevirib bu sistemi bərbad edənlər tarix və xalq qarşısında məsuliyyət daşıyırlar.

***-Müxalifət partiyasının sədri olaraq parlamentdə çıxışlarınız zamanı tənqidi fikirlər səsləndirirsiz. Bu tənqidlərə görə sizə hər hansı təzyiqlər olurmu?***

-Təbii ki, təzyiqlərə məruz qalıram. Hər şeyi insanlara demirəm. Nə də lazım olan dövlət orqanlarına müraciət etmirəm. Gözümü açandan “Dırınqılet”ə çevrilmiş sovet maşınlarında alver edənlər, bir neçə ildən sonra oliqarx olublar. Əgər alın təri ilə oliqarx olubsa, olsun. Vəzifəli şəxslər axı necə oliqarx ola bilər? Bu hansı qanunda yazılıb? Bəlkə Parlamentdən də kənar qanun qəbul edən orqanlar var? Mən Parlamentdə vəzifəli şəxsin oliqarx olmasını nəzərdə tutan qanun tanımıram. Kim halal yolla qazanmaq istəyir, halallıqla edirsə, daha da çox olsun. Kimsə, xalqa yalan deyib, xalqın cibindən oğurlayıb, insanlara yuxarıdan aşağı baxıbsa, xalq onu bağışlamaz və bağışlamayacaq.

***-Bəzən belə fikirlər səsləndirilir ki, məmurların bir çoxu yaşlıdır, gənc kadrlara yer verilməlidir. Bəzi yeni kadrlar da bir müddətdən sonra əyri yollara gedirlər. Necə düşünürsüz, yeni təyin olunan gənc məmurlar öz vəzifələrini yerinə yetirə bilirmi?***

-Hər zaman çıxışlarımda deyirəm ki, yeni kadrların çoxu köhnələrin atasına rəhmət oxutdurur. Zamanında mən də demişəm ki, gənc kadrları, xaricdə oxuyanları gətirib vəzifəyə qoyun, Azərbaycanı ağ günə çıxartsın. Amma bilmirdim ki, xaricdə oxumaq, dil öyrənmək və sonra gənc kadr olaraq vəzifəyə gəlmək Azərbaycan xalqını lap qara günə boyayacaq. Ancaq gənclərə daha çox yer verilməsi ilə bağlı çıxışıma görə xalqdan üzr istəyirəm. Onlar vəzifəyə qoyulub ki, insanların problemini həll etsinlər. Onların vəzifəyə gəlməsindən sonra problemlər daha da çoxalıb. Mənə məlumdur ki, onlara çox pis irs qoyulub. Onlara qalan pis irsi daha da pis günə qoyurlar. Amma bunu azaltmalı idilər. Nə iş görürlər? Yalandan rüşvət almır deyib başqa yollarla min hiylə edirlər. Özlərini elə aparırlar ki, sanki Azərbaycan pis gündə idi, bunlar düzəldiblər. Cavab versinlər ki, nəyə görə problem azalmadı? Konkret iş aparılmalıdır ki, qanunsuzluqların qarşısı alınsın.



ləki qərarlarımız gündəlik, yaxın müddətli məsələlərə görə verilir. O baxımdan bu qərarların verilməsi ölkədə baş verən hadisələrə, dünyada gedən proseslərə bağlı məsələdir.

İcra hakimiyyətinin adını dəyişməklə, heç nə dəyişmir. Əsas yanaşma, baxış, tələb dəyişməlidir. Sistemin özündə olan boşluqlar doldurulmalıdır. Yeni bir islahatlar keçirilərsə, nələrsə müxtəlif sektorlar üzrə yaxşılığa doğru dəyişə bilər. Azərbaycan boyda balaca bir ölkədə 80-dən çox icra başçısı var. Azərbaycan az qala bir İstanbul boydadır. Bu baxımdan balaca ölkədə bu qədər padşahlara nə ehtiyac var? Bu, şəhərlərin böyüməsinin, Azərbaycanın inzibati vahidlərinin müxtəlif sahələr üzrə inkişafının qarşısını alır. Həm də dövlət büdcəsini göyə sovurur. Həmçinin, ölkəmizdə çoxsayda bələdiyyə var. Bu qədər bələdiyyələrin hamısı yarhəyatım məşəqqətdə keçib. Həyatımda dəyişən bir şey yoxdur. Bunlara öyrəncəli olmuşam, immunitetim yaranıb. Heç bir haqsız məsələni qaldırmıram, demirəm. Deməyimdə məqsəd odur ki, heç kim dövlət büdcəsini oğurlayıb, özünə şəxsi biznes qurub, sonra da mələk kimi görünməsin, yalan danışmasın, zənglərə düzgün münasibət göstərsin. Müraciət ediləndə vətəndaşın problemini həll etsin. Mələk donuna girib, qara işlərlə məşğul olmasınlar. Azərbaycanda bütün sahə və təbəqələrdə xeyli mələk donuna girmiş şeytan var. Hələ özünü qanunlardan üstün tutmaq istəyənlər də var. Hesab edir ki, tutduğu vəzifə ata evindən gətirdiyi irsdir, cehizdir. Vəzifəni atadan qalmış mal-mülk kimi nəzərdən keçirirlər. Sanki irsən keçib. Cırıq şalvarda gəzənlər, bu günləri 100 milyonların sahibidir.

İqtidara müraciət edirəm ki, Azərbaycana xaricdən insanlar gətirin. Ölkəmizə Yaponiyadan, Almaniyadan, İngiltərədən, Sinqapurdan mütəxəssislər gətirilsin, onlara Azərbaycan vətəndaşlığı verilsin və vəzifələrə təyin edilsin. Bir nazirlikdə, komitədə ən azından 50 alman, 50 yapon, 50 ingilis işləsin. Lap nazir, onun müavinləri təyin olunsunlar. Kimi vəzifəyə qoyursan, narazılıq yaradır. Bəlkə də həmin kadrların günahı yoxdur. Ola bilsin ki, onlara işləməyə icazə verilmir. Zəng gəlir ki, bunu belə et, edəndə digəri zəng edir ki, etmə. Bəlkə, ”Arşın mal alan” filmindəki kimi, ”biri deyir oxu, o biri deyir oxuma” gününə qalıblar. Bu, aydınlaşdırılmalıdır.

***Anar Kəlbiyev***

# "Hafka"nı həbsə aparan "uzun, incə yol"...

## Bir zamanların məşhur və qalmaqallı iş adamı özünü necə "yandırdı"? - Sensasiyalı təfərrüatlar...

***Azərbaycanın tanınmış, lakin elə bir o qədər də qalmaqallı iş adamı Hafiz Məmmədov həbs edilib.***

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, Vergi cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində Məmmədov Hafiz Məcid oğlunun bilavasitə faktiki rəhbərliyi həyata keçirdiyi müəssisələr üzrə yaranmış külli miqdarda vergi və məcburi dövlət sosial sığorta haqlarının ödəməkdən yayındırılması faktları üzrə cinayət işi başlanıb.

Başlanmış cinayət işi çərçivəsində Hafiz Məmmədov istintaqa gəlməkdən boyun qaçırdığından, onun barəsində ittiham elan edilməsi üçün şəxsin tutulması ilə bağlı axtarış haqqında qərar qəbul edilib.



Yasamal rayon məhkəməsinin qərarı ilə Hafiz Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

Rəsmi məlumatda belə deyilir. Halbuki həmin rəsmi məlumatdan bir qədər əvvəl Hafiz Məmmədov yerli mətbuata açıqlamasında bildirmişdi ki, saxlanılması ilə bağlı məlumat həqiqətəuyğun deyil: "Mənim 4 şirkətim var idi. Şirkətlərimdə çalışan əməkdaşlara görə, Dövlət Sosial Müdafiə Fonduna (DSMF) 652 min manat borcum yaranmışdı. Şirkətlərim müflis olduğundan bunu ödəyə bilmədim. Məhkəmə də bu günə kimi vaxt vermişdi. Bu gün də həmin borcu ödədim".

"Hafka" ləqəbli iş adamı onu da vurğulayıb ki, indiyədək şirkətlərinin vergi borcu olmayıb: "Dövlətin vergisini hər kəs verməlidir. Mən heç vaxt vergidən yayınmamışam və bu işi özümə müqəddəs borc bilmişəm. İndiyə qədər dövlətə bir milyondan çox vergi ödəmişəm".

Lakin çox keçmədən belə aydın oldu ki, "Hafka"nın bu sözləri onun ənənəvi "yalanlama"ndan başqa bir şey deyil və reallıq tamam başqadır.

"Ənənəvi yalanlama" deyirik, çünki biznes fəaliyyətindən daha çox müxtəlif vaxtlardakı qalmaqalları ilə məşhur olan H.Məmmədov hər dəfə barəsindəki xəbərləri, iddiaları təkzib edir, ancaq bir müddət sonra həmin xəbərlərin, iddiaların doğruluğu gün işığına çıxırdı. Sonuncu dəfə də eyni hal təkrarlandı. Saxlanıldığını yalanlayan, vergi borcunu ödədiyini deyən iş adamı barədə həbs qərarı çıxarıldığı rəsmiləşdi.

Bəs "Hafka" bu günlərə niyə, necə düşdü?

H.Məmmədov vaxtilə Baghlan Group FZCO-nun prezidenti olan Məmmədov, eyni zamanda hazırda fəaliyyətini dayandıran "Bakı" futbol klubunun da rəhbəri idi. Böyük pullara sahib olsa da o, daim bədxərcliyi ilə diqqət çəkirdi. Qiymətli hədiyyələr verməyi xoşlayan "Hafka" hətta birdəfə ondan müsahibə alan fransız jurnalistə bahalı saat verməsi ilə gündəmə gəlmişdi.

Hafiz Məmmədovun iflas etməsinin səbəbinə gəlincə, bunu daha çox onun zamanında mövcud şəraiti düzgün qiymətləndirməməsi ilə əlaqələndirirlər. "Hafka"nı batıran digər səbəblərdən biri də, düzgün şərik seçməməsi göstərilir. İddialara görə, H.Məmmədovun iflas etməsinə sabiq nəqliyyat naziri Ziya Məmmədovla şərikliyinin pozulmasının da rolu böyükdür.

Hətta vəziyyət o yerə çatdı ki, "Hafka" məhkəməlik oldu, bir sıra mülkləri də əlindən alındı. Mərkəzi Bankın məhkəmə iddiasına səbəb isə vaxtilə "Bank of Azerbaijan"a ayrılmış kreditlərdir. Bu bank isə H.Məmmədovun ailə üzvlərinə məxsus idi. Üç fiziki səhmdardan ikisi - Kənan və Sənan Məmmədovlar iş adamının övladları, Mübariz Məmmədov isə qardaşı idi. Söhbət üç kredit müqaviləsi üzrə ümumilikdə 55 milyonluq kredit borcundan gedirdi. Bunun da 50 milyonu əsas borc, 5 milyonu faizlər idi. Həmin kreditlər 2013-cü ilin aprel, iyun və iyul aylarında ayrılmışdı.

Bu məsələyə görə "Hafka"nın müsadirə edilən mülklərinin arasında "Ramada Hotel & Suites Baku" da var idi.

Vaxtilə bahalı həyat tərziylə tez-tez gündəmə gələn, İspaniyanın "Atletiko", Fransanın "Lans" klublarına sponsor olması ilə diqqət çəkən "Hafka" tədricən çöküşə keçdi. Daim borcları ilə gündəmə gəldi, şirkətləri bir-birinin ardınca iflas etdi, sonda isə qalmaqallı iş adamı müflisləşdi. Onun bir zamanlarkı qüdrətinin yerində "yel əsib yengələr oynamağa" başladı.

Bəzilərinə görə, H.Məmmədovun bu durumunu həm də "kələklə gələn küləklə gedər" atalar məsəli ilə də izah etmək olar; çünki o öz biznes imperiyasını xeyli dərəcədə müəyyən oliqarx-məmurlarla qaranlıq əlaqələr, korrupsiya qoxulu əməkdaşlıqlar hesabına gücləndirmişdi.

"Hafka"nın adı hətta kriminal xarakterli hadisələrdə belə az hallanmamışdı.

Və nəticə göz qabağındadır. Qısa vaxtda qazanılan inanılmaz biznes karyerası "Hafka" üçün həbslə nöqtələndi. Yuxarıda sadaladıqlarımızı nəzərə aldıqda isə belə bir sonluq təəccüblü deyil...

***Toğrul Əliyev***

# Milli Məclisin İntizam komissiyası toplandı

***Yanvarın 27-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, yaz sessiyasının başlanması münasibətilə deputatları təbrik edən komissiyanın sədri Eldar İbrahimov bildirib ki, gündəlikdə Milli Məclisin İntizam komissiyasının 2021-ci ilin yaz və payız sessiyaları dövründə gördüyü işlərə dair məlumata baxılması nəzərdə tutulub.

Milli Məclisin 2021-ci ildə çox səmərəli fəaliyyət göstərdiyini deyən komissiya sədri keçən il İntizam komissiyasının Əsasnaməsinin qəbul olunmasının əhəmiyyətindən danışıb.

Hesabat dövründə İntizam komissiyasının gördüyü işlər barədə məlumat verən Eldar İbrahimov bildirib ki, daxil olan bütün məsələlər diqqətlə araşdırılıb, qanunvericiliyə ciddi riayət etməklə müvafiq tədbirlər görülüb. O cümlədən komissiya 55 saylı Xaçmaz şəhər seçki dairəsi üzrə Milli Məclisin deputatı Eldəniz Səlimovun deputat toxunulmazlığına xitam verilməsi məsələsinə müsbət rəy verib.

Eldar İbrahimov bildirib ki, hesabat dövründə İntizam komissiyasına vətəndaşlardan 20 müraciət daxil olub. Müraciətlər təhlil edilərək araşdırılıb və müvafiq tədbirlər görülüb.

İclasda İntizam komissiyasının ötən il ərzində gördüyü işlər barədə məlumat dinlənildikdən sonra müzakirələr başlanıb. Komissiyanın sədr müavini Fəzail Ağamalı, deputatlar Hikmət Məmmədov, Məlahət İbrahimqızı, Nəsib Məhəməliyev, Nizami Səfərov və Madər Musayev komissiyanın son bir ildəki fəaliyyətini və təqdim olunan hesabatı yüksək qiymətləndiriblər.

Müzakirələrin yekununda İntizam komissiyasının hesabatı məqbul sayılıb.

# Əjdər Olun məhkəməsində şahidlər ifadə verdi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rüşvət almaqda təqsirləndirilən sabiq aparat rəhbəri Əjdər Cəbiyevin (Əjdər Ol) cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.***

"Unikal" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə cinayət işi üzrə şahid qismində tanınmış şəxslər ifadə verib.

Dövlət Sosial Müdafiə Fondunda və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müvafiq vəzifələrdə çalışmış şahidlər təqsirləndirilən şəxsə verilmiş ittihamlarla bağlı prokurorun suallarını cavablandırıblar.

Proses fevralın 2-də davam etdiriləcək.

# İsa Həbibbəyliyə yeni vəzifə verildi

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyliyə yeni vəzifə verilib.***

"Unikal" xəbər verir ki, bu barədə akademiyanın Rəyasət Heyətinin iclasında qərar verilib.

Belə ki, iclasda AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinin ayrı-ayrılıqda fəaliyyət göstərməsi haqqında qərar qəbul olunub.

Beləliklə, qərara uyğun olaraq Humanitar Elmlər Bölməsinə rəhbərlik akademik İsa Həbibbəyliyə həvalə olunub.

Qeyd edək ki, İctimai Elmlər Bölməsinə rəhbərlik isə akademik Gövhər Baxşəliyevaya tapşırılıb.

# Nazirlik: Qar yağacaq

***Yanvarın 28-də gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı gözlənilir. Gündüz tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək. Havanın temperaturu gecə 1-3° isti, gündüz 5-7° isti, Bakıda gecə 1-3° isti, gündüz 5-7° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 % olacaq.

Azərbaycanın rayonlarında arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 4-9° isti, dağlarda gecə 5-10° şaxta, yüksək dağlıq ərazilərdə 14-18° şaxta, gündüz 0-5° şaxta olacaq.



# Ramiz Mehdiyev Elton Məmmədovu məhkəməyə verdirdi

***Sabiq deputat Elton Məmmədov barəsində xüsusi ittiham qaydasında şikayət olunub.***

"Unikal" xəbər verir ki, şikayətçi E. Məmmədovun Cinayət Məcəlləsinin 147.2-ci (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə ittiham olunmasını tələb edib.

Səbail Rayon Məhkəməsində hakim Günel Səmədovanın icraatına verilib. Məhkəmənin ilkin baxış iclası fevralın 2-ə təyin edilib.

"Dünən bununla bağlı mənə mesaj gəldi. Düşünürəm ki, kim olar? Təbii ki, bu, ancaq araqarışdıran AMEA-nın hüquq şöbəsinin müdiri Kamal Əliyevdir". Bunu "Unikal"a açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının işlər idarəsinin sabiq müdiri Elton Məmmədov deyib. O bildirib ki, K.Əliyev AMEA-nın Prezidenti Ramiz Mehdiyevin komandası ilə birgə hərəkət edir:

"Bu proseslər hamısı mənim işə bərpa olunmağımla bağlıdır. İndiyə qədər niyə vermirdilər məhkəməyə? Kamal Əliyev may ayından, yəni məndən sonra oraya gəlib. Mən heç onu tanımıram. Vaxt uzadırlar. Birbaşa şantaj xarakterli işlərdir. Bununla məni məhkəmə iddiasından əl çəkməyə məcbur etmək istəyirlər. Kamal Əliyev özü cinayətkar dəstənin üzvüdür. Bakı Hərbi Məhkəməsində hakim olub. O, "Tərtər işi"ndə bizim əsgər və zabitlərimizə qarşı ədalətsiz qərarlar çıxaran şəxsdir".

Qeyd edək ki, E.Məmmədov vəzifəsindən azad edildikdən sonra AMEA-nı məhkəməyə verib və məhkəmə onun işə bərpa olunması haqda qərar çıxarıb. Daha sonra AMEA qərardan apellyasiya şikayəti verib.

***Murad İbrahimli***

# Direktorun səsyazısı ilə bağlı araşdırma başladı

***Təsil Nazirliyi Ağstafa rayonunun Aşağı Kəsəmən kənd tam orta məktəbinin direktoru Mətanət Məmmədovanın sosial şəbəkələrdə yayılan səsyazısı ilə bağlı araşdırmalara başlayıb.***

Bu barədə "Unikal"a Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov bildirib.

C.Valehov araşdırma nəticələrilə bağlı ictimaiyyətə məlumat veriləcəyini qeyd edib.

Qeyd edək ki, Ağstafa Rayon Aşağı Kəsəmən kənd tam orta məktəbinin direktorunun rüşvət istəməsi ilə bağlı səsyazısı yayılıb.

Səsyazısında məktəb direktoru Mətanət Məmmədova müəllimdən əlavə dərs saatları müqabilində hər ay ona pul verməsini tələb edir.

V.Məmmədova isə pulu vermək üçün imkanının olmadığını bildirib.

Daha sonra direktor müəllimi otaqdan qovub və məsələ barədə danışacağı təqdirdə başına oyun açacağını bildirib.

# Gövhər Baxşəliyevaya AMEA-da yüksək vəzifə verildi

***Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

İclasda Humanitar və İctimai Elmlər bölmələrinin ayrı-ayrılıqda fəaliyyət göstərməsi haqqında qərar qəbul edilib.

Humanitar Elmlər Bölməsinə rəhbərlik akademik İsa Həbibbəyliyə, İctimai Elmlər Bölməsinə rəhbərlik isə akademik Gövhər Baxşəliyevaya həvalə olunub.

Eyni zamanda, AMEA Rəyasət Heyətinin növbəti qərarı ilə akademik Gövhər Baxşəliyevaya AMEA-nın vitse-prezidenti vəzifəsinin icrası tapşırılıb.

# Bəzi məmurların sensasion "dollar oyunu"...

## "Qara bazar"ın "qara" işləri: süni ajiotajdan "qaz vurub qazan dolduranlar" kimlərdir? - İlginc təfərrüatlar!

***Son vaxtlar Azərbaycanda devalvasiya təhlükəsi ilə bağlı söz-söhbətlər artıb. Baxmayaraq ki, istər hökumət və Mərkəzi Bank, istərsə də müstəqil iqtisadçı ekspertlər belə bir təhlükənin real olmadığı barədə birbaşa və dolayı açıqlamalar verirlər, lakin mövzu gündəmdən düşmək bilmir.***

Bəs manatın ucuzlaşacağı barədə iddialar haradan qaynaqlanır? Belə iddiaların məqsədli şəkildə daim mətbuatın və cəmiyyətin gündəmində olmasını istəyənlərin varlığı mümkündürmü?

Məsələn, iqtisadçı deputat Vahid Əhmədovun bu günlərdə yerli mediaya dediklərini oxuyanda düşünməyə bilmirsən. Vahid müəllim əksər mütəxəssislər kimi açıq şəkildə bildirir ki, hazırda manat üçün hər hansı təhdid yoxdur, məzənnə sabit saxlanılır. Buna səbəb indiki vəziyyətdə neft qiymətinin 80-85 dollar civarında olması, eyni zamanda, valyuta ehtiyatlarımızın bolluğudur.



Deputat əminliklə bildirib ki, ilin birinci yarısında məzənnə dəyişikliyi olmayacaq. "Lakin sonradan vəziyyət necə dəyişəcək, hansı proseslər gedəcək, bunu zaman göstərəcək" - o vurğulayıb.

Ancaq Vahd müəllimin dediklərində ən çarpıcı nöqtə başqadır. Belə ki, millət vəkili dolların alışında yaranan məhdudiyyətlə bağlı Azərbaycan Banklar Assosiasiyası ilə əlaqə saxladığını diqqətə çatdırıb: "Quruma müraciətimdən sonra araşdırma aparıldı, məlum oldu ki, kommersiya banklarında dolların alış qiymətində dəyişiklik yoxdur. Ola bilər filallarda müşahidə edilsin. Amma Mərkəzi Bankın da bununla bağlı heç bir məktubu yoxdur. Həmçinin, Azərbaycanın kifayət qədər valyuta ehtiyatı var".

Deputat daha bir ilginc nüansa toxunub; o deyib ki, ajiotajı yaradan "qara bazarlar"dır: "Çünki bu, onlar üçün qazanc yeridir. "Qara bazar"ın işləməsi üçün də mütəmadi belə informasiyaları tirajlayırlar. Ola bilər ki, bəzi bank filiallarının "qara bazar"la əlaqəsi var və dolları bankda yox, "qara bazar"da baha qiymətə satırlar. "Qara bazar"a "krışalıq" edən məmurlar var. Bunlar faktlardı. Mərkəzi Bank və hüquq-mühafizə orqanları bunun qarşısını almalıdılar. Bu "qara bazar" məsələsini sona çatdırmaq lazımdır. Niyə "qara bazar"da istənilən qədər valyuta olmalıdır, lakin bankda yox? Azərbaycanın kifayət qədər valyuta ehtiyatları var. Bunu normal tənzimləmək lazımdır ki, ajiotaj yaranmasın".

Göründüyü kimi, devalvasiya təhlükəsi ilə bağlı söz-söhbətlərin bir ucu yenə gedib məmurlara çıxır. Deputat açıq şəkildə bildirir ki, dollar alqı-satqısı ilə məşğul olan bir "qara bazar" mövcuddur, bu "qara bazar" manatın ucuzlaşmasını bilərəkdən gündəmə gətirir, bununla da yaranmış ajiotaj nəticəsində "qaz vurub qazan doldururlar": yəni ABŞ valyutasını panikaya düşmüş əhaliyə banklarda baha qiymətə satırlar! Əcəb oyundur! Necə deyərlər, "şeytanın da ağlına gəlməz".

Fikrimizcə, bununla artıq əlaqədar qurumların (Mərkəzi Bank, Maliyyə Nazirliyi və s), həmçinin, hüquq-mühafizə orqanlarının məşğul olmasına ehtiyac var.

Yeri gəlmişkən, bəzi iqtisadçıların da bu mövzuda ilginc təsbitləri var. Onların fikrincə, dollara çox ehtiyacı olan sahibkarlar naəlac qalıb, "qara bazar"a üz tutur və oradan istədiyi qədər dolları alır. Təbii ki, bankların məzənnəsindən yüksək qiymətlə! Ümumiyyətlə, ölkədə 2 ildən artıq mövcud olan valyuta alışına qanunsuz 20000 manatlıq limitin nəticələrindən biri elə "qara bazar"ın aktivləşməsidir.

Bəs konkret olaraq kim himayə edir bu "qara bazar"ı"? Məsələn, iqtisadçı Əkrəm Həsənova görə, "qara bazarda"kılar özlərini cinayətkar saymır və guya dövlət maraqlarına qulluq edirlər: "Misal üçün, məsələni "yuxarılar"da elə təqdim edirlər ki, guya bir güllə ilə iki quş vururlar:

1) Devalvasiya baş vermir və əhalinin mütləq əksəriyyətinin narazılığı baş vermir. Sadə insanların xırda dollar ehtiyacları qarşılanır;

2) Valyuta ehtiyatları çox ərimir, çünki iri dollar satışları "qara bazar" vasitəsilə yüksək məzənnə ilə satılır.

Mən bilmirəm, mövcud vəziyyəti kimlər yaradıb. Axmaqlar, canilər, yoxsa ingilisdilli qlamur boşboğaz "ağıllılar"... Təkcə onu bilirəm ki, bu əməllə dövlətin iqtisadi qüdrətini sarsıdırlar. Hələ də başa düşmürlər ki, dövlət qanunlarla idarə olunmalıdır. Oyun qaydalarına riayət olunmalıdır. Rəsmi məzənnə varsa, onunla da valyuta mübadiləsi əməliyyatları məhdudiyyətsiz həyata keçirilməlidir".

Sonda onu da qeyd edək ki, 2015-ci ildə baş verən devalvasiyadan sonra ölkədə sərbəst valyuta satışı qadağan edilib. 2016-cı ilin yanvarında Azərbaycanda fəaliyyət göstərən banklar filial və şöbələrindən kənarda fəaliyyət göstərən mübadilə şöbələrini bağlayıb. Bu addım Mərkəzi Bankın İdarə Heyətinin təsdiqlədiyi "Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması Qaydaları"na əsasən atılıb.

Bu qaydaya əsasən, mübadilə şöbəsi bankın səlahiyyətli idarəetmə orqanının qərarına əsasən bankın özünün, filial və ya şöbəsinin yerləşdiyi ərazi vahidində (rayon, şəhər, şəhər rayonu, qəsəbə, kənd) yaradılır və Mərkəzi Bank tərəfindən verilən icazə əsasında fəaliyyət göstərir. Beləliklə, bu qəbildən olan valyutadəyişmə məntəqələrinin lisenziyası ləğv olunub. Həmin dövrdə banklardan kənar valyuta satışı ilə bağlı qadağalar müvafiq qanunvericiliyə də daxil edilib.

***P.S. Mövzunun əhəmiyyətini nəzərə alıb diqqətdə saxlayacaq, əlavə təfərrüatlar öyrənib oxuculara çatdırmağa çalışacağıq.***

***Toğrul Əliyev***

# Alimpaşa Məmmədovun həbsdəki macəraları...

## Həbsdəki sabiq icra başçısı hamını necə güldürdü?



***Bu günlərdə məlum oldu ki, İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin rəhbərliyi Dövlət Təhlükəsizliyi Xidmətinin Saxlanma Yeri və İstintaq Təcridxanasına başçəkmə həyata keçirib. Başçəkmədə komitə sədri Tural Hüseynov və hüquq bölməsinin rəhbəri Rövşən Məmmədov iştirak edib.***

T.Hüseynov bununla bağlı yerli mətbuata bildirib ki, təcridxanada nöqsan aşkarlanmayıb: "Saxlanma yerində təmizlik müşahidə olunur. Təmirdən sonra otaqlarda hamam və televizorlar yerləşdirilməsi nəzərdə tutulub. Saxlanma yerindən hər hansı şikayət qeydə alınmadı".

İndi isə gələk açıqlamanın ən maraqlı qisminə: adıçəkilən Komitə rəhbərliyi saxlanılanlardan Şəmkir rayonunun sabiq icra başçısı Alimpaşa Məmmədovla görüşüb. Sitat: " Özünü yaxşı hiss edir. Sentyabrdan namaza başlayıb, şeir yazır, idmanla məşğul olur. Mənə dedi ki, iqtisadi sahədə layihələr yazır və azadlığa çıxdıqdan sonra onları reallaşdırmaq istəyir".

Alimpaşa müəllimin namaza başlaması, şeir yazması, idmanla məşğul olması ilə işimiz yoxdur. Ola bilsin, o, bunlarla həbsdən əvvəl də məşğul imiş. Necə ki, bir çox məmurlar üçün nə namaz qılmaq, nə şeir yazmaq yenilik deyil. Onlar namaz qıla-qıla, şeir yaza-yaza da rahatlıqla rüşvət alıb büdcə pullarını basıb yeyə bilirlər. Çünki ibadət də, ədəbiyyat da bir çox mənəvi ehtiyaclar kimi onlara sadəcə görüntü üçün lazımdır.

Ancaq Alimpaşa müəllimin "iqtisadi sahədə layihələr yazması və azadlığa çıxdıqdan sonra onları reallaşdırmaq istəməsi" sözün həqiqi mənasında heyrətamizdir! Axı o, icra başçısı olarkən rəhbərlik etdiyi rayonun iqtisadiyyatını sözün həqiqi mənasında alt-üst eləmiş, Şəmkiri ailə biznesinin girovuna çevirmişdi. Bilənlər bilir, bilməyənlər, ya da bilib unudanlar üçün kiçik xatırlatma:

Bu həmin Alimpaşa Məmmədovdur ki, icra başçısı olarkən vəzifəsindən sui-istifadə edərək oğlunun (Adil Adilzadənin) adına "Şəmkir Səbət Ticarət Mərkəzi" MMC yaradıb. Kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən "Şəmkir Səbəti" də "Çinarlı qəsəbə" MMC-nin nəzdində təsis edilib. 2017-ci ildə bu müəssisənin açılışı olub. Açılış mərasiminə Alimpaşa Məmmədovun özü də qatılıb. Məlumat üçün bildirək ki, "Şəmkir Səbəti" ticarət mərkəzi Bakı-Qazax avtomobil yolunun 391-ci kilometrliyində yerləşir. Ticarət obyekti beş hektar ərazini əhatə edir. Obyektin ərazisində 147 ədəd ağac konstruksiyasından ibarət butiklər, sahəsi 7000 kvadrat metrə yaxın topdan satış ticarətin təşkili üçün qapalı sahələr, sahəsi 500 kvadrat metrdən ibarət "Ailəvi istirahət" yeməkxana binası, beş ədəd soyuducu anbar inşa olunub.

Eyni zamanda, "Şəmkir Səbəti" ticarət mərkəzinin nəzdində "Şəmkir Səbəti Supermarket" də var ki, Alimpaşa Məmmədov bu obyektin də açılışında qırmızı lenti kəsib.

"Şəmkir Səbəti" vasitəsi ilə hazırda həbsdə olan sabiq icra başçısı rayonda kənd təəsrrüfatı məhsullarının satışını faktiki olaraq öz əlində cəmləşdirib, monopoliya yaradıb. Belə təfəkkürlə iqtisadi sahədə hansı layihə yazmaq olar?!

Və yaxud "Abad Şəmkir" MMC-ni götürək. Məsələ burasındadır ki, vaxtilə A.Məmmədov Şəmkir Şəhər Bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 967 min manat dəyərində qida məhsulları istehsal zavodu olan "Abad Şəmkir" MMC-nin bütün paylarını oğluna cəmi 180 manata satılmasını təmin edib.

Bildirək ki, respublikada ilk dəfə olaraq Şəmkirdə 42 bələdiyyənin nəzdində 45 məhdud məsuliyyətli cəmiyyət təsis edilib. Bu isə 2014-cü ilin dördüncü rübünə - Alimpaşa Məmmədovun icra başçısı təyin edildiyi ilə təsadüf edir. Rayonun ən böyük bələdiyyəsi olan Şəmkir bələdiyyəsinin nəzdində üç MMC - "Ceyrançöl", "Abad Şəmkir" və "Morul Tikinti" müəssisələri fəaliyyət göstərib.

"Abad Şəmkir" MMC-yə məxsus Şəmkir Ağ dağlar adlanan ərazisində "Natural" su və konserv məhsulları istehsal edən zavod isə 2015-ci ildə tikilib.

Mətbuatda yayılan iddialara görə, həmin vaxt zavodun tikintisi üçün "Atabank"dan 10 il müddətinə 700 min manat kredit götürülüb.

Sabiq icra başçısının daha bir mənimsəməsi isə "Az Forel" MMC ilə bağlıdır. Belə ki, o, korrupsiya və rüşvət yolu ilə əldə etdiyi 832 min manatı oğlu Adil Adilzadənin adına təsis etdiyi "Az Forel" MMC-nin xərclərinə yönəltməklə həmin pul vəsaitlərini leqallaşdırıb. Bu müəssisə 2018-ci ildə fəaliyyətə başlayıb. Balıqartırma müəssisəsi Şəmkirçay Su Anbarının sahilində yerləşir. "Az Forel" altı hektar ərazini əhatə edir. 2018-ci ildə müəssisənin tikintisinə üç milyon manat kapital qoyulsa da, ümumi investisiya dəyəri 43 milyon manat olduğu qeyd edilib. Bu barədə Alimpaşa Məmmədovun özü 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafı yekunları və qarşıda duran vəzifələri barədə çıxışında bildirib.

Müxtəlif fəndlərlə, mənimsəmələrlə ailə biznesi yaradan birinin müasir dövrdə "iqtisadi sahədə layihələr" yazması qədər gülməli nə ola bilər!

Lap yazsa belə, Alimpaşa müəllimin azadlığa çıxdıqdan sonra onları reallaşdırmaq istəməsi ikiqat gülüncdür. Axı sabiq icra başçısına ölkənin aparıcı rayonlarından birinin rəhbərliyi həvalə edilmişdi və bu ona imkan verirdi ki, həmin rayonda iqtisadi baxımdan NÜMUNƏ yaratsın. O isə rüşvət, korrupsiya, mənimsəmə və inhisarçılığın, yerli sahibkarlığı əzməyin "NÜMUNƏSİNİ" yaratdı, buna görə də haqlı olaraq cəzalandırıldı.

Elə isə əlavə sözə ehtiyac qalırmı? Qalır, ancaq böyük şairimiz Mirzə Ələkbər Sabirin məşhur misrasının timsalında: " Qah, qah... qəribə gülməlisən xaniman x?rab!"

***Sənan Mirzə***

# Rafael Cəbrayılovun qardaşı məhkəmədə ifadə verdi



***Həbsdə vəfat edən sabiq deputat Rafael Cəbrayılovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə şahid qismində Rafael Cəbrayılovun qardaşı Rauf Cəbrayılov ifadə verib.

Şahid bildirib ki, "Dərhal" MMC şirkətinin təsisçilərindən biri olub, şirkətə faktiki rəhbərliyi isə mərhum qardaşı edib: "Mən uzun illər Moskvada yaşamışam. Sonradan bu işlərə qatıldım. Həmin şirkətdə mən və digər qardaşım Elşən Cəbrayılov təsisçi idik. Rafael deputat olduğu üçün şirkət yarada bilməzdi, ona görə sənədsiz rəhbərlik edirdi. Mən hacı adamam, bu faiz söhbətlərinə görə Rafaellə həmişə mübahisə edirdik. Ona bu işlərin haram olduğunu deyirdim. Son dörd ildə də onunla ümumiyyətlə, danışmamışıq. Dediyim kimi, mübahisələrə yeganə səbəb onun daima faiz ödəməsi olub".

Şəhidin ifadəsinə münasibət bildirən zərərçəkmiş Sülhiyyə Məmmədovanın vəkili Kamandar Nəsibov ondan tikinti işlərinə kimin rəhbərlik etməsini və bu işlərdə rolunun nədən ibarət olduğunu soruşub. Şahid cavabında bütün işləri Rafael Cəbrayılovun apardığını, özünün isə arada bir şirkətə gəldiyini deyib: "Mən qardaşlarımın yanına gələndən münaqişədə olmuşam. Gəlirin də 70 faizi Rafaelə, 30 faizi bizə çatırdı".

Prosesdə vəkil Kamandar Nəsibov və şahid arasında mübahisə düşüb. Vəkil Rauf Cəbrayılovun yalan danışdığını və bütün məsələləri mərhum qardaşının üstünə atdığını deyib: "Deyirsiz ki, mən şirkətin təsisçisi olmuşam, amma aparılan işlərə qarışacağım olmayıb. Bu necə ola bilər? Siz həmişə şirkətə gəlib-getmisiz. Özünüzə Hacı deyirsiz, amma yalan danışırsız, Hacı yalan danışmaz".

Məhkəməyə sədrlik edən Əhməd Quliyev isə şahidin ifadəsinə belə münasibət bildirib: "Rafael Cəbrayılov vəfat etdiyi üçün bütün işləri onun üstünə atırsız, onun burda nə dediyi mənim yaxşı yadımdadır. Ortada dəymiş ziyan var, bunu kim ödəməlidir?"

Daha sonra cinayət işi üzrə zərərçəkmiş qismində tanınmış Bəşir Məmmədovun məhkəməyə göndərdiyi müraciət elan olunub. Zərərçəkmiş ərizəsində pulu Elşən Cəbrayılova ödədiyini, buna baxmayaraq, onun cinayət məsuliyyətinə cəlb olunmadığını yazıb. Ərizədə cinayət işinin istintaqa qaytarılması xahiş olunub.

Sonda bir neçə dəfə prosesə çağırılsa da, iştirak etməyən şahidlərin məcburi məhkəməyə gətirilməsi barədə qərar qəbul olunub.

Proses fevralın 10-da davam etdiriləcək.

# Yük avtomobillərində siqaretlər aşkarlandı



***Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Azərbaycana gələn "Mercedes-Benz" və "Man" markalı yük nəqliyyat vasitəsitələri saxlanılıb və sürücüləri şifahi sorğu-sual olunub.***

"Unikal" Komitəyə istinadən verdiyi məlumata görə, bu zaman hər iki sürücü idarə etdikləri nəqliyyat vasitələrində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan olunmalı hər hansı predmetin olmadığını bildiriblər.

Lakin gömrük baxışı zamanı yük nəqliyyat vasitələrində gömrük nəzarətindən gizlədilən 4 600 ədəd "Marlboro touch" markalı siqaret aşkarlanıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

## "Ramiz Mehdiyev şər-böhtana dözə bilər, mən yox" - Şöbə müdiri

***"Mən 2017-ci ilin iyul ayında Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilmişəm. "Tərtər hadisələri" isə həmin ilin may ayında baş verib. Mən "Tərtər işi" ilə bağlı məhkəmə proseslərinə sədrlik etməmişəm. Həmin vaxt "Tərtər işi" ilə bağlı açılan cinayət işləri məhkəmə icraatına verilməmişdi".***

Bunu "Unikal"a açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq şöbəsinin müdiri Kamal Əliyev deyib. O Elton Məmmədovu xüsusi ittiham qaydasında məhkəməyə verməsinin səbəbini də açıqlayıb:

"Elton Məmmədov məhkəmələrdə çıxış edir, məni cinayətkar adlandırır. Mən bilmək istəyirəm, desin görüm, hansı cinayəti törətmişəm? Mən Elton Məmmədovla bağlı məhkəməyə AMEA-nın yox, öz adımdan şikayət etmişəm. Mən onun özünə də dedim ki, AMEA-nın Prezidenti Ramiz Mehdiyev sənin şər-böhtanına dözə bilər, amma mən yox".

Qeyd edək ki, Elton Məmmədov Kamal Əliyevi cinayətkar dəstənin üzvü adlandırıb. Bildirib ki, K.Əliyev Bakı Hərbi Məhkəməsində hakim olan zaman "Tərtər işi"ndə əsgər və zabitlərimizə qarşı ədalətsiz qərarlar çıxarıb.

***Murad İbrahimli***

## Göstəriciləri aşağı olan Bakı məktəbləri

***Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) direktoru Rüfət Əzizovun iştirakı ilə Metodik dəstək və peşəkar inkişaf mərkəzinin əməkdaşları 17 yanvar 2022-ci il tarixində 301 və 21 yanvar 2022-ci il tarixində isə 227 saylı tam orta məktəblərin rəhbər və pedaqoji heyətiylə görüşlər başlayıb.***

Metodik dəstək prosesində hər bir məktəbin inkişaf proqramının hazırlanması nəzərdə tutulub. Məqsədə uyğun olaraq Məktəbin İnkişaf Planın (MİP) hazırlanmasında seçilmiş pedaqoji heyətə mərkəz əməkdaşları tərəfindən dəstək olunub. Həmçinin müəllimlərin dərsləri dinlənilib, ehtiyaclar müəyyənləşdirilib, müəllimlər və metodbirləşmə rəhbərləri ilə fərdi və kollektiv söhbətlər aparılıb. MDPİM əməkdaşları tərəfindən hazırda məktəblərdə təşkil edilən BSQ suallarına baxış keçirilib və müvafiq rəy bildirilib.

Müxtəlif ümumtəhsil müəssisələrində TKTA tərəfindən yoxlamalar həyata keçirilib. Yoxlamalar 6 sahə üzrə aparılıb:



Şagird nailiyyətinin yüksəldilməsi;

Şagirdlərin şəxsi keyfiyyətlərinin (səriştələrin formalaşdırılması) inkişafı;

Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması;

Məktəbdaxili qiymətləndirmə;

Məktəbdə dəstəkləyici mühit;

Məktəb rəhbərliyinin fəaliyyəti.

Yoxlamaların nəticəsi olaraq ARTİ və BŞTİ-nin əməkdaşlığı çərçivəsində həmin məktəblərə metodik dəstəyin göstərilməsi nəzərdə tutulub.

Qeyd edək ki, ARTİ-nin ekspert və mütəxəssisləri tərəfindən metodik dəstək göstəriləcək məktəblərdə pedaqoji heyət üçün seminar və maarifləndirmə işlərinin aparılması nəzərdə tutulur.

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Virtual məkanda fikir azadlığı və insan haqları

### Elşad Mirbəşiroğlu: "Vətəndaşların hüquqları oflayn rejimdə qorunduğu kimi, virtual məkanda da qorunmalıdır. Hər bir insanın öz şərəf və ləyaqətini müdafiə etmək imkanı olmalıdır"



***Dünyada internetin əlçatan olduğu ölkələr söz azadlığının müəyyən qədər təmin edildiyi ölkələrin siyahısına düşsə də, rəqəmsal məkanda insan hüquqları məsələsi də yaddan çıxmamalıdır. Fikir azadlığı demokratik cəmiyyətin mühüm əsaslarından birini təşkil etməklə onun tərəqqisinin və inkişafının ən zəruri şərtidir.***

Çünki demokratiya şəraitində fikir azadlığı öz-özlüyündə əhəmiyyətli olmaqla yanaşı, digər hüquqların müdafiəsində də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan virtual aləmdə fikir azadlığının təminatı önəmli rol oynayır. Söz azadlığı ilə yanaşı, sosial şəbəkələrdə insanların hüquqlarının qorunması da aktual problemə çevrilib. İndiyədək dəfələrlə sosial şəbəkələrdə məlumatların yayımlanmasının qanun çərçivəsinə salınacağı ilə bağlı təkliflər səslənsə də, hələ bu problem öz həllini tapmayıb. Son illər sosial şəbəkələrdən cinayət xarakterli əməllərin törədilməsi məqsədilə də istifadə olunması halları mövcuddur.

Xüsusilə də sosial şəbəkələrdə müxtəlif təbəqədən olan insanların, o cümlədən ali dövlət qurumlarında vəzifələr tutan şəxslərin də hüqüq və azadlıqlarına xələl gətirilən, onların şərəf və ləyaqətini alçaldan təhqiramiz, şərböhtan xarakterli yazılar, statuslar və rəylər yazılır, fotoşəkillər, kollaj şəkillər və videolar paylaşılır. Üstəlik, son dövrlərdə sosial şəbəkələrdə artmaqda olan bu cür neqativ halların bir sıra mənəvi, əxlaqi və fiziki olmaqla, mənfi təsirlər yaratması halları da müşahidə edilir.

Amma Milli Məclisin İnsan hüquqları komitəsinin 2022-ci il yaz sessiyasının iş planında Azərbaycanda rəqəmsal məkanda ölkə vətəndaşlarının hüquqlarının qorunması ilə bağlı qanun layihəsi hazırlanacağı öz əksini tapıb.

Media hüququ üzrə ekspert Ələsgər Məmmədli deyir ki, ölkəmizdə İnsan Hüquq və azadlıqlarının qorunması ilə bağlı qanun mövcuddur: "Bu konstitusiya qanunu bütün məkanlarda qorunur. Həm virtual, həm də real həyatda insan hüquq və azadlıqlarını qoruyur. Yeni qanunun hansı zərurətdən yaradılması barədə birmənalı fikir söyləyə bilmərəm".

Ə. Məmmədli bildirir ki, insanlar son vaxtlar virtual məkandan daha çox istifadə edirlər. Artıq virtual platforma insanların informasiya aldığı məkana çevrilib: "Bu da vətəndaşlara gerçək xəbərləri daha rahat əldə etmək imkanı yaradır. Bu da informasiya məkanını nəzarət altında saxlamaq istəyənlərə sərf etmir. Ona görə də, bu tipli qanunların ortaya çıxmasının altında məqsəd olaraq insanların ifadə azadlığını məhdudlaşdırmağa yönələn tədbirlər dayanır".

Ələsgər Məmmədli bildirir ki, mövcud qanunvericilikdə vətəndaşların şərəf və layaqətini qoruyan bütün müddəalar təsbit olunub: "Yaxşı olardı ki, qanun layihəsini hazırlayan komitə bunun hansı zərurətdən irəli gələrək hazırlandığını açıqlasın. Onların qəbul etdikləri qanunlardan xəbəri varsa, baxa bilərlər ki, artıq hər şey mövcud qanunvericilikdə təsbit olunub".

Milli Məclisin deputatı, Elşad Mirbəşiroğlu deyib ki, hazırlanmaqda olan qanun layihəsi bütün cəmiyyətin maraqlarına cavab verir: "Azərbaycanda indiyədək kibermәkanda vətəndaşların hüquqlarını təmin edən mexanizmlər olmayıb. Vətəndaşların hüquqları oflayn rejimdə qorunduğu kimi, virtual məkanda da qorunmalıdır. Hər bir insanın öz şərəf və ləyaqətini müdafiə etmək imkanı olmalıdır. BMT hətta kibermәkanda insanların hüquqlarını təmin etmək üçün dövlətlərüstü qanunvericiliyin hazırlanması məsələsini qaldırır. Azərbaycana gəlincə, yeni qanun layihəsi bütün internet istifadəçilərinin hüquqlarının qorunmasına yönələcək".

Elşad Mirbəşiroğlu qeyd edib ki, yaxın vaxtlarda Milli Məclisin komitəsində ictimai dinləmələr keçiriləcək, bu zaman müvafiq mexanizmlər hazırlanacaq: "Əgər bir istifadəçi internetdə digər istifadəçinin şərəf və ləyaqətini təhqir edibsə, o zaman narazı şəxsin özünü müdafiə etmək imkanı olmalıdır. Kim məsuliyyət daşıyır? İnternetdə dövlət əleyhinə olan müraciətlərə kim cavabdeh olacaq? Bu sualların cavabları yeni qanun layihəsində öz əksini tapacaq".

Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikasının Cinayət qanunvericiliyinə əsasən, şəxsin şərəf və ləyaqətinin alçaldılması, şəxsin ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan, eləcə də şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaldılması cinayət əməli sayılır və bu əməli törətmiş şəxs cinayət mühakiməsi qaydasında cəzalandırılır. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 147-ci maddəsi ilə böhtan, həmin Məcəllənin 148-ci maddəsi ilə təhqir əməli cinayət əməli kimi təsbit edərək bu cinayət əməllərini sanksiyalaşdırıb. Azərbaycan Respublikasının Cinayət qanunvericiliyinin tələblərinə görə, bu əməllər kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərlərdə, kütləvi informasiya vasitələrində, eləcə də kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayılmaqla törədilə bilər. Mövcud Cinayət Məcəlləsində və digər aidiyyatı qanunlarda şəxsiyyətin şərəf, ləyaqət və işgüzar nüfuzunun qorunması üçün dəqiq mexanizmlər nəzərdə tutulub. Şərəf, ləyaqət və işgüzar nüfuzun ləkələnməsi mülki məsuliyyətə səbəb olmaqla yanaşı, yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatlar kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərlərdə, kütləvi informasiya vasitələrində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayıldıqda böhtan cinayətinin, şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma isə təhqir cinayətinin tərkibini də yaradır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ekologiyanın düşməni olan nəqliyyat vasitələri yığışdırılacaq

## Eldəniz Cəfərov: “EDM-lərin sayının artırılması elektromobillərdən istifadəni stimullaşdıracaq”



***Bakının ekoloji baxımdan çirklənməsi hazırda ən böyük problemlərdən biridir. Bu prosesdə ən çox rolu isə avtomobillər oynayır. Atmosfer havası ilə bağlı aparılan monitorinqlər göstərir ki, paytaxtda havanın çirklənməsinin 70%-dən çoxu avtonəqliyyat vasitələrinin payına düşür. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin keçirdiyi monitorinqlər də təsdiqləyir.***

Dünyada nəqliyyat vasitələrinin atmosferə mənfi təsirini azaltmaq üçün təbiətə dost nəqliyyat vasitələrinin təşviqi istiqamətində mühüm addımlar atılır. Elektromobillərin, hibrid nəqliyyat vasitələrinin, havanı daha az çirkləndirən sıxılmış qazla işləyən avtomobillərin sayı artırılır, dizel yanacağı ilə işləyən nəqliyyat vasitələri isə minimuma endirilir. Azərbaycanda da bu aydan etibarən elektromobillər həm idxalda, həm də daxili bazarda satışda ƏDV-yə cəlb edilməyəcək. Bununla bağlı Vergi Məcəlləsinə dəyişiklik olunub. Qanunun 164.1.41-ci maddəsinə əsasən istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə vergi ödəməkdən azad ediləcək.

Bəs görəsən qanunda bu dəyişiklik nəqliyyat vasitələrinin atmosferin çirklənməsində rolunu azalda biləcəkmi?

Nəqliyyat eksperti Elməddin Muradlı deyir ki, hibrid avtomobillər bizim cəmiyyəti ekoloji təmiz nəqliyyat vasitələrindən istifadəyə hazırlayır. Onun sözlərinə görə, hibrid avtomobillər bu istiqamətdə bir tramplin rolu oynayacaq. Ekspert bildirir ki, ekoloji təmiz nəqliyyat vasitələrinin stimullaşdırılması vacib amildir. Ətraf mühitin çirklənməsində böyük rolu olan avtomobillərdən geniş istifadənin qarşısı alınmalıdır.

Ekspert onu da deyir ki, elə mühərriki dizel və benzinlə işləyən avtomobillərə tətbiq edilən rüsumların artırılması da bu qəbildən olan tədbirlərdir: “Vergi Məcəlləsinə dəyişikliklə 7 ildən artıq istehsal tarixi olan və idxal edilən nəqliyyat vasitələrinin aksiz vergisinə əlavə əmsal tətbiq olunacaq. Yeni dəyişikliklə mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda 5600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 15 manat olub. Əvvəl bu məbləğ 13 manat idi . Burada mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda 5600 manat məbləği dəyişməz olaraq qalır. Mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda 20 600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 40 manat olub. Əvvəl isə bu 18600 manat + hər kubsantimetrə görə 35 manat idi. Mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda 60 600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 80 manat qalxıb. Dəyişiklikdən əvvəl bu məbləğ 53 600 manat + hər kubsantimetrə görə 70 manat təşkil edirdi”.

Nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərov isə deyir ki, Azərbaycanda elektrik mühərrikli avtonəqliyyat vasitələrindən istifadə üzrə infrastruktur genişləndiriləcək. Bu, “Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviqi ilə bağlı qiymətləndirmələrin aparılması, təkliflərin hazırlanması və həyata keçirilməsi üzrə 2022-ci il üçün Yol Xəritəsi”ndə əks olunub. Belə ki, bu ilin iyun ayının 1-dək, parklanma yerlərində elektrik mühərrikli nəqliyyat vasitələri üçün enerji doldurma məntəqələrinin (EDM) yaradılması, elektrik mühərrikli avtomobillərin parklanma yerlərindən güzəştli istifadəsi ilə bağlı təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunacaq. Müvafiq təkliflərin hazırlanması Bakı Nəqliyyat Agentliyinə, Daxili İşlər Nazirliyinə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Energetika Nazirliyinə, “Azərişıq” ASC-yə, Bakı Şəhər İcra Hakimiyyətinə həvalə olunub. Oktyabrın 1-dək elektrik enerjisi təchizatçısı tərəfindən EDM-lərə elektrik enerjisinin satışı qiymətlərinin tənzimlənməsi, o cümlədən gecə-gündüz tariflərinin tətbiq edilməsi məsələsi nəzərdən keçiriləcək. EDM-lərin şəbəkəyə qoşulması üzrə texniki şərtin verilməsi və müvafiq qoşulmanın təmin edilməsi prosesinin sadələşdirilməsi və bu sahədə qoşulma haqqının aşağı salınması imkanlarının araşdırılmasına dair iyunun 1-dək təkliflər hazırlanacaq. Dekabrın 1-dək isə EDM-lər haqqında məlumatları interaktiv xəritə üzərində əks etdirən internet informasiya ehtiyatı (mobil əlavə də daxil olmaqla) yaradılacaq.Bununla yanaşı noyabrın 1-dək bu tipli nəqliyyat vasitələrinin ödənişli yollardan ödənişsiz (və ya diskontlu ödəniş) əsasda istifadə imkanları araşdırılaraq təkliflər hazırlanacaq.

E. Cəfərovun sözlərinə görə elektromobillərə olan güzəştlər ekoloji çirklənmənin qarşısını alacaq. O, bildirir ki, hazırda ölkəmizdə elektromobillərin sayı o qədər çox olmasa da gələcəkdə idxalının artacağı gözlənilir: “Hazırda ölkəmizdə nə qədər elektromobil varsa, o qədər də EDM var. Gələcəkdə alış-veriş mərkəzlərində, əhalinin sıx olduğu ərazilərdə də EDM-lər quraşdırılacaq. Parklanma yerləri ilə yanaşı bu tip obyektlərdə EDM-lərin qoyulması elektromobillərdən istifadəni asanlaşdıracaq. Hazırda EDM-lər əsasən Bakı-Abşeron ərazisində olsa da, gələcəkdə ölkə üzrə EDM-lərin sayı artırılacaq”.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Fevralın 1-dən magistraturaya sənəd qəbulu başlayır




***Dövlət İmtahan Mərkəzi 2022/2023-cü tədris ili üçün magistraturaya qəbul elan edib.***

DİM-dən “Unikal”a bildirilib ki, ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul haqqında elanın tam mətni, “Şəxsi kabinet”in yaradılması və istifadə qaydası, müsabiqə şərtləri, “Bakalavrın elektron ərizəsi” formasının doldurulma qaydası və onun nümunəsi, magistratura səviyyəsinə qəbula hazırlaşan bakalavrlara kömək məqsədilə ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü), informatika üzrə bilikləri, xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırığı nümunələri “Magistr” jurnalının 2-ci sayında dərc edilib.

Bakalavrlar fevralın 1-dən 10-dək Mərkəzin internet saytının müvafiq səhifəsinə (https://azvision.az/redirect.php?url=http://eservices.dim.gov.az/erizemag/erize) daxil olub “Bakalavrın elektron ərizəsi” formasını doldurub təsdiq etməlidirlər. Qeydiyyat səhifəsi göstərilən tarixlərdə aktiv ediləcək.

Jurnalda, həmçinin xarici dil (ingilis, fransız, alman, rus, ərəb və fars dilləri) fənni üzrə dinləyib-anlama qabiliyyətini yoxlamaq üçün tapşırıq nümunələri verilib, DİM-in saytında isə müvafiq audiofayllar yerləşdirilib (https://azvision.az/redirect.php?url=http://dim.gov.az/news/2504/). Hər kəs bu faylları öz telefonuna və ya kompüterinə yükləyib qulaq asmaqla jurnalda verilən tapşırıqları yerinə yetirə bilər.

Jurnalı ”Abituriyent” satış köşkündən (Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi, 28), həmçinin kitab mağazalarından almaq və ya www.abiturient.az saytından sifariş etmək mümkündür.

# İsrailli səfir Azərbaycana təşəkkür edib



***Ötən həftə Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyası Holokostun inkarını pisləyən və rədd edən qətnamə qəbul edib.***

“Unikal”ın xəbərinə görə, bu barədə İsrailin Azərbaycandakı səfiri Corc Dik bildirib. Onun sözlərinə görə, Azərbaycan bu qətnamənin ko-sponsorlarından (həmmüəllif) biridir: “Buna görə Azərbaycana təşəkkür edirik”, - səfir vurğulayıb.

O diqqətə çatdırıb ki, 114 ölkə bu qətnaməni təsdiqləyib, yalnız İran bu qətnaməni təsdiqləməyib.

# Atmosfer havasının keyfiyyəti yaxşılaşıb

***”Atmosfer havası üzrə avtomatik stansiyalardan əldə olunan məlumatlara əsasən, yanvar ayı ərzində Xətai, Nizami, Nərimanov rayonları ərazisində havanın keyfiyyət göstəriciləri norma daxilində olub”.***

”Unikal” xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin əməkdaşı Gülnarə Abbasova bildirib. O qeyd edib ki, lakin yanvar ayının bəzi günlərində Səbail rayonunda havada PM dispers toz hissəcikləri, Gəncə və Sumqayıt şəhərlərində isə azot-4 oksid normadan bir qədər yüksək qeydə alınıb.

Xidmət rəsmisinin sözlərinə görə, yanvar ayı ərzində əsasən yağıntılı günlərin üstünlük təşkil etməsi atmosfer havasında həm qaz qarışıqlarının, həm də dispers toz hissəciklərinin miqdarının azalmasına və hava keyfiyyətinin yüksəlməsinə səbəb olub. Belə ki, ötən ilin yanvar ayı ilə müqayisədə bu ilin yanvar ayı ərzində atmosfer havasının çirklənmə səviyyəsi daha aşağı qeydə alınıb: ”Yaxın günlərdə yağıntılı və küləkli hava şəraitinin proqnozlaşdırıldığını nəzərə alsaq, yanvar ayının sonunadək havanın keyfiyyətinin yaxşı olacağı gözlənilir”.



## "Sənaye zonalarında istehsal 88% artıb" - Mikayıl Cabbarov

***2021-ci ildə Azərbaycanın sənaye zonalarında 2020-ci illə müqayisədə 88,3% çox - 2,4 milyard manatlıq məhsul istehsal olunub.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.

"Ötən il sənaye zonalarının qeyri-neft sənayesi istehsalında payı 15,5%-ə yüksəlib, onun artımdakı payı isə 30% təşkil edib. Sənaye zonaları iqtisadiyyatın diversifikasiyasında, xüsusilə qeyri-neft sənayesinin inkişafında mühüm rol oynayır", - deyə nazir qeyd edib.

## Qarabağ tam televiziya yayımı ilə əhatə olunacaq

***"Hazırda Qarabağın 35%-də televiziya yayımı var. Bu ilin sonuna qədər göstərici 100%-ə çatdırılacaq".***

"Unikal" xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov Bakıda keçirilən "Azərbaycanda rəqəmsal inkişaf və nəqliyyat sahəsi üzrə prioritetlər" mövzusunda seminarda bildirib.

"Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin 72%-də 2G, 40%-də 3G, 50%-də isə 4G şəbəkəsi var. Qarabağda genişzolaqlı internet şəbəkəsi yaratmaq üçün 1 400 km-lik fiberoptik kabelin çəkilməsinə start verilib. Biz artıq televiziyalarda rəqəmsal yayıma keçmişik. Radiolarda isə 2026-cı ilə qədər tam rəqəmsallaşmaya nail olmağı düşünürük", - deyə o, əlavə edib.

## 60-dan çox elmlər namizədi və doktoru yetişdirən professor...

***Azərbaycan Dövlət İqtisad Universitetinin sabiq prorektoru, professor, İqtisad elmləri doktoru, Azərbaycanda iqtisadi kibernetika elmi istiqamətinin yaradılmasının banisi, Dövlət Mükafatı Laureatı Bədirxan Musayevin bu gün doğum günüdür.***

"Unikal" xəbər verir ki, professor 1934 -çü ilin yanvar ayının 15-də Gürcüstan Respublikasının Tetritskaro (Ağbulaq) rayonunun Kosalar kəndində anadan olub.

O, orta məktəbi Gürcüstanda bitirdikdən sonra Bakıya gəlib, ömrünün böyük hissəsini, nə az, nə çox - düz 60 ilini doğma evi saydığı indiki Dövlət İqtisad Universitetinə həsr edib.

Professor Bədirxan Musayev elmi fəaliyyəti ilə bağlı Türk Dünyası Beynəlxalq Araşdırmalar Akademiyasının akademiki seçilib, 8 güşəli Beynəlxalq qızıl ulduz medalı ilə təltif olunub. O, respublika və xarici dövlətlər üzrə 60-dan çox elmlər namizədi və doktoru yetişdirib.

Professor B.Musayev 20 il Təhsil Nazirliyində ictimai əsaslarla "iqtisad" bölməsinə rəhbərlik edib. Ömrünün 60 ilini həsr etdiyi İqtisad Universitetində 12 il rektorun müşaviri, 10 il dekan, 8 il prorektor, 40 il isə "İqtisadi Kibernetika" kafedrasının müdiri işləyib. Bədirxan Musayev 2 iyul 2016-ci ildə vəfat edib.

O, hər zaman tələbələrinin xatirələrində işıqlı ziyalı kimi qalacaq...

Allah rəhmət eləsin!

# Ləyaqətli, cəfakeş və səmimi insan

## Və yaxud dostum haqqında bir neçə ştrix

***Çox vaxt düşüncələrim məni uzaqlara aparır, həyatın yaratdığı gözəlliklərin qonağı oluram, qarşıma uca dağlar, gur şəlalələr, zümzüməli bulaqlar çıxır. Həyatın bu ecazkar və füsunkar gözəlliklərin və dadlı-duzlu nemətlərin bolluğunda özünə sədaqətli və etibarlı dost tapanda qəlbini bürüyən dərin hisslər daha güclü və məğrur olur. Bayronun bir sözü var: "Dostluq qanadsız məhəbbətdir". Bu, həqiqətən də belədir. Əgər iki dost arasında biri-birinə inam yoxdursa, deməli etibardan, sədaqətdən söz açmağa dəyməz.***

Bu dünyanın təzadlı, ziddiyyətli günlərinin çox şahidi olmuşuq. Bizi əhatə edən insanları yaxşı-pis tanımışıq. Onların məfkurəsi, ağlı-zəkası, fəlsəfi fikri, millətinə, xalqına olan sevgisinin nə qədər uca bir zirvədə olduğunu həmişə arzulamışıq. Belə insanlardan çoxlarına rast gəlmişəm və onlarla qürur duymuşam. Bunlardan biri də dostum, yazıçı-publisist Arif Ərşaddır.

Doğrusu onun haqqında yazmaq məmim üçün həm asandır, həm də çətin. Asandır ona görə ki, 30 ilin dostuyuq, bütün sınaqlardan mərdi-mərdanə çıxmışıq. Çətindir ona görə ki, yazını elə yazmalısan ki, dostunun ürəyində isti bir yuva salsın, qəlbi fərəhlə dolsun, könlü xoş olsun.

Arifin ən böyük və başqalarına nümunə olan müsbət keyfiyyətlərindən biri onun səmimi olmasıdır. Formalizm, təkəbbürlük, müştəbehlik ona yaraşmır, əksinə, elə insanlarla heç bir vaxt ünsiyyət yaratmaz. Çünki vicdanı buna yol verməz. "Vicdan insanların həyatının doğru yol göstəricisidir". Bu, L.Tolstoyun sözləridir. Arif doğru yoldadır, çünki onun öz həyat prinsipləri olduğundan həmişə vicdanının səsinə qulaq asıb. Məhz buna görə də, tutduğu yol həmişə hamar olub, onu təmiz, ləyaqətli, fədakar insanların yanına gətirib çıxarıb.

Onunla ünsiyyətdə olanlar, xarakterinə az-çox bələd olanlar belə qənaətə gəlirlər ki, bu insana bel bağlamaq olar. Heç bir vaxt, heç kimin varına, dövlətinə, mülkünə aldanıb dostlarına qarşı dönük çıxmaz. Bunu özünə təhqir sayar, çünki etibar etdiyin dostların varı-dövləti onların ləyaqətində və əxlaqındadır. Bax budur insanı yaşadan, ucaldan, başqasının yanında başı uca edən.

Arif yazıçı-publisistdir. Açıq etiraf edim ki, onun ilk hekayələrinin oxucusu mən olmuşam. Xoşuma gələni də olub, gəlməyəni də. Bir yerdə müzakirə etmişik, hərdən mübahisələrimiz də olub, son nəticədə bir məxrəcə gəlmişik və Arif Sumqayıtda öz hekayələri ilə tanınmağa başlayıb və mən onu haqlı olaraq "hekayələr ustası" adlandırmışam. Arif bu titulu bu gün də ləyaqətlə daşıyır və yaradıcılığını uğurla davam etdirir. Onun indiyə kimi "Ömür qatarı", "Tənha ağacı", "Hekayələr" kitabları çapdan çıxıb geniş oxucu kütləsinin ixtiyarına verilib. Hekayələri məzmunca maraqlı və oxunaqlıdır. Ana xətti, süjetlər, dialoqlar sadə, başa düşülən tərzdə yazılır və oxucuların bütün təbəqələri bu və ya digər sahədə Arifin hekayələrində özlərini tapırlar. Ən başlıcası isə hekayələri yığcam və lakonikdir. Onu da deyim ki, onun hekayələri iki cilddə Türkiyədə tərcümə olunub və bir neçə aydan sonar çapdan çıxacaqdır.

Arifin yaradıcılığı təkçə hekayələrlə kifayətlənmir. Onun bir neçə çap olunmamış romanları var. Lakin bu yaxınlarda Arif Ərşadın "Etiraf" adlı romanı oxucuların ixtiyarına verilib. Məişət mövzusunda yazılan bu əsərin əsas ana xətti, qayəsi, ailə münasibətləri, ağır və iztirablı anların baş verməsi, obrazların xarakteri, qarşıdurması və sair mühüm yer tutur. Kitabı oxunduqca həyatımızda baş verən reallıqların şahidi oluruq. Burada nə fantaziya var, nə fəlsəfə, nə də elmi axtarış. Adi bir ailənin taleyi oxucunun göz önündən çəkilmir və istər-istəməz həmin həyatla yaşamalı olursan. Bu da Arifin uğurudur.

Arif həm də yaxşı tərcüməçidir. Klassik Avropa ədəbiyyatını dilimizə çevirmək olduqca çətin və məsuliyyətlidir. Mən rusdilli qəzetin redaktoru olduğum an belə, tərcümə işinə can atmamışam. Ona görə yox ki, bacarmaram, ona görə ki, çox ağır bir yükdür. Arif bu ağır yükün altına böyük bir həvəslə girdi və etiraf edim ki, onun nə qədər çətinliklə tərcümə etdiyini görsəm belə, mənim gözlədiyimdən də yüksək səviyyədə Emil Zolyanın "Tereza Raken", "Naturalizm" və Amerika yazıçısı Karlos Kostanedanın "Don Xuanın təlimi" romanlarını peşəkarcasına dilimizə tərcümə edib və respublikada müsbət qarşılanıb.



Mən Arifin ədəbiyyat sahəsində qabiliyyətini görüb bir neçə romanımı və tarixi mövzuda yazılmış əsərlərimin redaktəsini ona həvalə etmişəm, dostumdur deyə, demək istəmirəm, bir ədəbiyyatşünas kimi kitablarımın redaktəsindən razı qalmışam.

Arifin bir müsbət keyfiyyəti üzərində də dayanmaq istəyirəm. Sumqayıtda hamımızın hörmət bəslədiyimiz yazıçı Hümbət Həsənoğlunun rəhbərliyi altında "Sumqayıt dostlar klubu" yaradılmışdır. Klubun üzvlərinin hamısı ziyalıdır, ən əsası isə hamısı Sumqayıtın təəssübkeşləridir.

Arifin klubda öz yeri, öz çəkisi vardır. Belə ki, kənardan onu görənlər belə qənaətə gələ bilərlər ki, bu insan sakit, təmkinli, qaradinməz bir adamdır. Lakin onu yaxından tanıyanlar Arifin məclis adamı, incə yumor sahibi olduğunun şahidi olur. Açığını deyim ki, klub üzvləri yay aylarında Azərbaycanın hər hansı bir rayonuna istirahət etməyə gedəndə, Arifin obyektiv səbəblərə görə, iştirak etməməsi hamıda təəssüf hissi doğurur. Çünki həmin günün şən və mənalı keçməsində Arifin rolu böyükdür. Bununla mən başqa dostlarımızın əməyinə kölgə salmaq niyyətim yoxdur, hərənin özünəməxsus yeri, duzlu yumoru var.

Arif Ərşadın qarşıdan 60 illik yubileyi gəlir. Mənim üçün həyatda yaş məhdudiyyəti olmadığından, hərdən fikirləşirəm ki, yəqin dostum Arif də bu fikirdədir. Bununla belə, keçdiyi ömür yolu hamar və zəngin olub. Gözəl ailəsi, övladları, nəvələri var. Bunun özü bir sevincdir və bu sevincin özü böyük bir xöşbəxtlikdir.

Arifin ötən günlərinə baxanda görürsən ki, o, ailəsinə, dostlarına qarşı həmişə ləyaqətli, cəfakeş, səmimi və istiqanlı olub. Arifi 30 il bundan əvvəl necə tanımışıqsa, elə də qalıb. Və inanırıq ki, indiyədək topladığı zəngin həyatını daha da gözəlləşdirəcək, öz saf və təmiz əməlləri ilə bizləri sevindirəcəkdir.

***Eyruz Məmmədov,***
***Respublikanın əməkdar jurnalisti***

# “Meliorasiya və Su Təsərrüfatı” ASC bölgələrdə layihələr icra edir

***Qubada suvarma mövsümünə hazırlıq işlərinə başlanılıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Quba Suvarma Sistemləri İdarəsi tərəfindən yeni suvarma mövsümünə hazırlıq işlərinə başlanılıb.***



Bu məqsədlə torpaq məcralı kanallar lil və kol kosdan təmizlənir. Ümumilikdə isə ötən il suvarma şəbəkələrində 230 km uzunluğunda təmir-təmizləmə işləri üzrə tədbirlər həyata keçirilib. Bununla yanaşı rayon ərazisindən keçən çayların daha çox təhlükə gözlənilən hissələrində daşqın və selə qarşı mübarizə tədbirləri görülərək, çay məcraları təmizlənib, sahilqoruyucu və su istiqamətləndirici torpaq bəndlər qurulub.

Ölkəmizin ən iri meyvəçilik rayonlarından olan Qubada bol məhsul götürmək üçün suvarma suyuna böyük ehtiyac var. Uzun illər sahələri suvarmaq üçün təsərrüfat sahibləri torpaq arxlarla su aparmalı olurdular ki, bu da həm vaxt həm də su itkisinə səbəb olurdu. Təkcə ötən il rayon ərazisində 2 min metrdən artıq torpaq kanal beton üzlüyə alınıb. Bu da öz növbəsində min hektar sahəsinin vaxtinda və itkisiz suvarılmasını təmin edib.

Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı çərçivəsində ötən il Quba rayonunda torpaq mülkiyyətçilərinin su təminatının yaxşılaşdırılması məqsədi ilə 10 ədəd subartezian quyusu istifadəyə verilib. Bununlada rayonda son illər istifadəyə verilən subartezian quyularının sayı 58-ə çatdırılıb. Daha 3 ədəd subartezian quyusunun 2022-ci ilin 1-ci rübündə istifadəyə verilməsi nəzərdə tutulub. Onu da bildirək ki, Quba rayonunda 26 min 33 hektar suvarılan sahə mövcuddur. Ötən il bu sahələr bir neçə dəfə suvarılmaqla ümumilikdə 69 min 536 hektar sahədə suvarma işləri aparılmaqla mövsümə yekun vurulub.

Kürdəmirdə yeni nov kanallar quraşdırılıb. Kürdəmir Suvarma Sistemləri İdarəsi ümumi uzunluğu 1285 km-dən çox olan olan magistral və təsərrüfatdaxili kanalların, 1002 ədəd müxtəlif növ hidrotexniki qurğuların, nasos stansiyaların və digər obyektlərin istismarı ilə məşğul olur. Ötən il xidməti ərazidə 66200 hektar kənd təsərrüfatı əkinləri və həyatyanı sahələrin suvarılması işləri yerinə yetirilib . Əkinlərin suvarılması Yuxarı Şirvan Kanalından öz axımı ilə, Girdiman və Kür çaylarından mexaniki üsulla həyata keçirilir. Kənd təsərrüfatı əkinlərinin vaxtlı-vaxtında və lazımı qədər suvarılma suyu ilə təmin olunması üçün ötən il qrafikə uyğun olaraq idarənin balansında olan suvarma kanallarının texnikalarla lildən təmizlənməsi işləri həyata keçirilib.



Kürdəmir Suvarma sistemləri İdarəsi tərəfindən 2021-ci ildə 2 min kubmetr lildən təmizləmə işləri görülüb. İdarənin xidməti ərazisi üzrə ümumilikdə balansda olan kanalların 830 km hissəsi lildən təmizlənib. Bundan başqa Şilyan (Qarasu) nov kanalının 1 km hissəsi üzərindəki hidrotexniki qurğularla birlikdə əsaslı təmir olunaraq həmin hissədə olan bütün köhnə yararsız novlar yenisi ilə əvəz olunub. Nəticədə sızma itkilərinin qarşısı alınaraq Qarasu kəndinin su təminatı yaxşılaşdırılıb. Bu il də həmin kanalın 1,6 km hissəsində yararsız novlar yenisi ilə əvəz olunacaq. Əlavə olaraq bildirək ki, ötən il ərzində Kürdəmir Suvarma Sistemləri İdarəsi tərəfindən kanalların üzərindəki hidrotexniki qurğuların 97 ədədi, 3 ədəd elektrik mühərriki, 12 ədəd nasos və beton kanalların 6,4 km hissəsində cari təmir işləri aparılıb.

Mil-muğan hidroqovşağında meliorativ tədbirlər gücləndirilib. 1972-ci ildə istifadəyə verilən Mil-Muğan Hidroqovşağı İstismarı İdarəsi Azərbaycan Respublikası və İran İslam Respublikası ərazisində yerləşən 120 min hektar ərazinin suvarılması məqsədilə tikilib. Hidroqovşağa Meliorasiya və Su Təsərrüfatı Ascnin tabeliyində olan Mil-Muğan Hidroqovşağı İstismarı İdarəsi xidmət edir. Əkin sahələrinin suvarılması üçün istifadə olunan kanallara su Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanalları vasitəsi ilə verilir. Kanallarda mütəmadi olaraq su itkisinin qarşısını almaq və su axımını sürətləndirmək üçün lildən təmizlənmə işləri aparılır. İdarədən bildirildi ki, bu il suvarma mövsümü üçün bütün hazırlıqlar artıq yekunlaşıb.

Hidroqovşaq üzərində suyu vaxtında ərazilərə çatdırmaq üçün 6 ədəd seqmentvari qapı var ki, bu qapıların da hər birinin su buraxma qabiliyyəti 400 kubmetr saniyədir. Kanallarda su bölgüsünü düzgün aparmaq üçün Araz çayının suyu dəniz səviyyəsindən 142,5 metr yüksək olmalıdır. Bundan sonra su bölgüsünü aparmaq mümkündür. Bundan başqa Hidroqovşaqdan ayrılan suyun enerjisindən Füzuli Su Elektrik Stansiyasının fəaliyyətində də istifadə olunur.

Qeyd edək ki, Hidroqovşaq Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanalları vasitəsilə 5 rayona xidmət edir. Bu ərazilərin 27 min hektarı Füzuli rayonunda, 44 min hektara yaxını Beyləqan rayonunda, 27 min hektara yaxını Ağcabədi rayonunda, 5400 hektarı Xocavənd rayonunda və 500 hektarı İmişli rayonu ərazisindədir.

*Hüseyn İsgəndərov*

# Bu tarixdən magistraturaya sənəd qəbulu başlayır



***Dövlət İmtahan Mərkəzi 2022/2023-cü tədris ili üçün magistraturaya qəbul elan edib.***

DİM-dən ”Unikal”a bildirilib ki, ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul haqqında elanın tam mətni, “Şəxsi kabinet”in yaradılması və istifadə qaydası, müsabiqə şərtləri, “Bakalavrın elektron ərizəsi” formasının doldurulma qaydası və onun nümunəsi, magistratura səviyyəsinə qəbula hazırlaşan bakalavrlara kömək məqsədilə ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü), informatika üzrə bilikləri, xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırığı nümunələri “Magistr” jurnalının 2-ci sayında dərc edilib.

Bakalavrlar fevralın 1-dən 10-dək Mərkəzin internet saytının müvafiq səhifəsinə (http://eservices.dim.gov.az/erizemag/erize) daxil olub “Bakalavrın elektron ərizəsi” formasını doldurub təsdiq etməlidirlər. Qeydiyyat səhifəsi göstərilən tarixlərdə aktiv ediləcək.

Jurnalda, həmçinin xarici dil (ingilis, fransız, alman, rus, ərəb və fars dilləri) fənni üzrə dinləyib-anlama qabiliyyətini yoxlamaq üçün tapşırıq nümunələri verilib, DİM-in saytında isə müvafiq audiofayllar yerləşdirilib (http://dim.gov.az/news/2504/). Hər kəs bu faylları öz telefonuna və ya kompüterinə yükləyib qulaq asmaqla jurnalda verilən tapşırıqları yerinə yetirə bilər.

Jurnalı ”Abituriyent” satış köşkündən (Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi, 28), həmçinin kitab mağazalarından almaq və ya www.abiturient.az saytından sifariş etmək mümkündür.

# Atmosfer havasının keyfiyyəti yaxşılaşıb

***”Atmosfer havası üzrə avtomatik stansiyalardan əldə olunan məlumatlara əsasən, yanvar ayı ərzində Xətai, Nizami, Nərimanov rayonları ərazisində havanın keyfiyyət göstəriciləri norma daxilində olub”.***

”Unikal” xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin əməkdaşı Gülnarə Abbasova bildirib. O qeyd edib ki, lakin yanvar ayının bəzi günlərində Səbail rayonunda havada PM dispers toz hissəcikləri, Gəncə və Sumqayıt şəhərlərində isə azot-4 oksid normadan bir qədər yüksək qeydə alınıb.

Xidmət rəsmisinin sözlərinə görə, yanvar ayı ərzində əsasən yağıntılı günlərin üstünlük təşkil etməsi atmosfer havasında həm qaz qarışıqlarının, həm də dispers toz hissəciklərinin miqdarının azalmasına və hava keyfiyyətinin yüksəlməsinə səbəb olub. Belə ki, ötən ilin yanvar ayı ilə müqayisədə bu ilin yanvar ayı ərzində atmosfer havasının çirklənmə səviyyəsi daha aşağı qeydə alınıb: ”Yaxın günlərdə yağıntılı və küləkli hava şəraitinin proqnozlaşdırıldığını nəzərə alsaq, yanvar ayının sonunadək havanın keyfiyyətinin yaxşı olacağı gözlənilir”.

# Daha 12 koronavirus xəstəsi küçədə saxlanıldı

***Yanvarın 26-da polis əməkdaşları tərəfindən respublika ərazisində 12 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ”Unikal”a verilən məlumata görə, polis əməkdaşları ”COVİD-19” virusuna yoluxaraq ev şəraitində müalicədə olmasına baxmayaraq yaşadığı evləri tərk etmiş həmin şəxslərlə izahedici söhbətlər aparıb, tibbi prosedurları gözləməklə yaşadığı evlərə qaytarıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 1 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Camalov Həmidağa Əliağa oğluna verilmiş AA 09909 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

**ELAN**

**01 dekabr 2021-ci il tarixində “AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ, CEYRANBATAN SU TƏCHİZAT İDARƏSİNİN VERDİYİ VƏSİQƏ N:404 itirildiyinə görə etibarsız sayılır.**

# Putin Türkiyəyə səfər edəcək



***"Rusiya Prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın Türkiyəyə səfər etməklə bağlı dəvətini qəbul edib".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Onun sözlərinə görə, Putin prezidentlərin qrafiki və epidemioloji vəziyyət imkan verən kimi Türkiyəyə səfər edəcək.

Qeyd edək ki, Ərdoğan NTV kanalına müsahibəsində rusiyalı həmkarı Vladimir Putini Türkiyəyə dəvət etdiyini demişdi.

# Paşinyan Ordu Gününə qatılmamaq üçün "koronavirusa yoluxub"

***"Nikol Paşinyan Ordu Gününə həsr olunmuş tədbirdə iştirak etmək istəməyib və bu səbəbdən onun koronavirusa yoluxduğunu bildirib".***

"Unikal" xəbər verir ki, bu barədə "Hraparak" qəzeti yazıb.

Nəşrin məlumatına görə, Paşinyanın koronavirusa növbəti dəfə yoluxmasına çoxları şübhə ilə yanaşır:

"Xəstəliyin simptomsuz olduğu bildirilir. Çoxlarını maraqlandırır ki, əgər belədirsə, Paşinyanı testdən keçməyə nə məcbur edib? Və baş nazir infeksiya əlaməti olmasaydı, həkimə müraciət edərdi?".

Qəzetin yazdığına görə, bütün bunlar 28 yanvara planlaşdırılan Ordu Günü tədbirləri ilə bağlıdır:

"Sabah K.Dəmirçyan adına İdman Kompleksində 44 günlük müharibənin iştirakçılarının iştirak edəcəyi tədbir planlaşdırılır. Şayiələrə görə, təşkilatçılar təsirli emosional tamaşa hazırlamaq istəyiblər, lakin müharibə veteranları bundan imtina ediblər. Paşinyan da şou olmayan, adi tədbirdə iştirak etmək istəməyib".

# "Kiyev Rusiya ilə müharibədə 12 saat davam gətirə bilməyəcək" - Korotçenko



***"Ukrayna ordusu Rusiya ilə müharibə başlayacağı təqdirdə tez bir zamanda məğlub olacaq". AzVision.az xəbər verir ki, bu barədə hərbi ekspert İqor Korotçenko məlumat verib.***

Ekspertin fikrincə, əgər Ukrayna Rusiya Federasiyasına qarşı hərbi əməliyyatlar aparmaq qərarına gəlsə, o zaman münaqişə uzanmayacaq.

Müharibə başlayandan sonra ilk 12 saat ərzində Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının komandanlığı qoşunlara mərkəzləşdirilmiş nəzarəti itirəcək. Bundan sonra isə Ukrayna ordusunun məğlubiyyəti qaçılmaz olacaq,- Korotçenko deyib.

# Qarabağda döyüşdən qaçan erməni polkovnikə qarşı cinayət işi açılıb



***Ermənistanda keçmiş qondarma rejimin zabitinə qarşı cinayət işi açılıb. AzVision.az xəbər verir ki, bu barədə yerli media məlumat yayıb.***

Bildirilir ki, "Müdafiə ordusu"nda komandir olmuş polkovnik V.İ. Ermənistan Respublikası Cinayət Məcəlləsinin iki maddəsi ilə ittiham olunub.

İstintaq Komitəsinin mətbuat xidmətinin yaydığı məlumata görə yüksək rütbəli zabit barəsində Cinayət Məcəlləsinin 364-cü maddəsinin 3-cü bəndi (hərbi xidmət vəzifələrini yerinə yetirməkdən boyun qaçırma) və 376-cı maddəsinin 1-ci bəndi ilə iş başlanıb. İstintaq müəyyən edib ki, 2020-ci il oktyabrın 10-13-də Qarabağda gedən döyüşlər zamanı polkovnik alay komandiri vəzifəsini yerinə yetirməkdən imtina edib. Bu isə alayın fəaliyyətinin dayandırılmasına səbəb olub,-yerli media yazıb.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətlə üzləşən Ermənistan hələ də fərarilərin olması barədə məlumatlar yayır, döyüşlərdən yayınanları aşkarlayaraq onlara qarşı cinayət işləri açır.

# Putin təklifi qəbul etdi: Bakı və Ankara Ukraynadakı oyunu dəyişə bilər

***Putin Ərdoğanın Ukrayna məsələsini müzakirə etmək üçün Türkiyəyə dəvətini qəbul etdi. Səfərin vaxtı bəlli deyil, qarşıdurmanın kəskinləşməsi fonunda bunun qısa zamanda baş tutması gözləniləndir. Hərçənd, Kremlin açıqlaması diqqəti fərqli məqama da çəkir.***



Peskov bildirir ki, epidemioloji vəziyyət və qrafiklər imkan verən kimi Putin Türkiyəyə gedəcək.

Bu o deməkdir ki, Moskva Ukrayna məsələsində Türkiyənin təklif etdiyi masa ilə bağlı yekun qərarı verməyib və səfərin vaxtı proseslərin inkişafına uyğun müəyyən ediləcək: Qərblə qarşıdurma daha da kəskinləşəcəksə, Putinin Türkiyəyə səfəri tezləşə bilər və Moskva bununla Ankaranın ona qarşı cəbhədə yer almamasına çalışacaq;

Ərdoğan Zelenskini də dəvət etmişdi. Rəsmi Kiyevdən hələ ki, heç bir reaksiya yoxdur. Zelenski toqquşmanın tərəfdarı olmadığını, Putinlə təmas qurmaq istədiyini açıqlayıb. Ankara masası Kiyev üçün yeni fürsətdir, lakin burada ABŞ və Avropanın yanaşması da həlledici rol oynaya bilər.

ABŞ Avropanın Rusiyaya qarşı cəbhədə birləşməsini, Avropa - Fransa və Almaniya Vaşinqtonun marağında olmayan "Normand formatı"nın bərpasını istəyir. Qərb yarımkürəsi Rusiyaya qarşı məsələdə fikir ayrılığı yaşasa da, Türkiyənin qurmaq istədiyi masa məsələsində birləşə bilər: Avropa "Normad formatı"na alternativə, ABŞ Rusiya və Ukraynanın anlaşmasına qarşıdır; bu baxımdan, Ankaraya gəlməməsi üçün Zelenskiyə təzyiqlərin edilməsi mümkündür;

Putin Ankaraya bütün hallarda səfər edəcək, hərçənd, Moskvanın hazırda əsas prioriteti "Normad formatı"nın aktivləşməsi, bununla NATO-da Avropa-ABŞ çatının dərinləşməsidir və bu istiqamətdə işləyəcək.

Proseslərin inkişafından asılı olmayaraq, Kremlin dəvəti qəbul etməsi Ankaranın alternativ masa təklifində müəyyən irəliləyiş hesab oluna bilər. Və Bakı ilə Ankara Zelenskinin gəlişinə də çalışacaq.

Mümkün görüşün təşkili ilə münaqişənin həllində irəliləyişə nail olmaq çətin olsa da, yeni esklasiyanın qarşısını almaq mümkündür. Və bununla:

- Türkiyənin anti-Rusiya cəbhəsində yer almaq riski azalacaq: prosesdə iştirak edən Bakı da iki cəbhə arasında qalmaq təhlükəsini azalda bilər;

- Qara dəniz bölgəsində geniş toqquşmaya imkan verməməklə Şərqi Aralıq dənizindəki ssenarinin təkrarlanmasının qarşısını ala bilər;

- Alternativ masada istənilən irəliləyiş masanın qurulmasını həyata keçirən Ankara və Bakının regional oyunçu olmaq gücünü artıracaq;

Türkiyə masası Ukrayna üçün ən azı toqquşmanın qarşısını almaq baxımından ən unikal variant hesab edilə bilər, xüsusilə ABŞ-Rusiya toqquşmasında hər iki tərəfin Kiyevi "bufer zona" kimi qəbul etməsi reallığı bunu deməyə əsas verir(publika).

# Erməni "qaçqınlar" İrəvanda etiraz aksiyası keçiriblər

***Bu gün bir vaxtlar Qarabağda məskunlaşdırılmış erməni "qaçqınlar" İrəvanda növbəti dəfə etiraz aksiyası keçiriblər. AzVision.az xəbər verir ki, bu barədə yerli media məlumat yayıb.***



Bildirilir ki, "qaçqınlar" statuslarının dəqiqləşdirilməsi tələbi ilə Ermənistan Xarici İşlər Nazirliyinin binasının qarşısında toplaşıblar.

- "Hadrut naminə" qeyri-hökumət təşkilatının rəhbəri Levon Hayriyan jurnalistlərə bildirib ki, Ermənistanın bütün hakimiyyət orqanları "Dağlıq Qarabağ"ın tanınması məsələsinə məhəl qoymayıb və nəticədə xeyli ərazilər əldən çıxdı. Onun sözlərinə görə, etirazçılar o rəsmilərə qarşı çıxırlar ki, onlar Qarabağ torpaqlarını ya birbaşa, ya da dolayısı yolla Azərbaycana aid olduğunu etiraf edir,-məqalədə yazılıb.

Etirazçılar Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağdan olan qaçqınlara 300 mənzil verilməsi ilə bağlı bəyanatından da hiddətləniblər. Onların sözlərinə görə, söhbət cəmi 108 evdən gedir və bu da yalnız Qarabağın dağlıq hissəsinə aiddir(Hazırda Rusiya sülhməramlılarının nəzarət etdiyi Xankəndi nəzərdə tutulur-red.)

- Xarici İşlər Nazirliyindən isə etirazçılara bildiriblər ki, bəzi işçilər koronavirusla bağlı distant qaydada işləyir. Nazir Ararat Mirzoyan yerində olmadığı üçün onları qəbul edə bilməyəcək. Lakin qaçqınlara yaxın günlərdə görüş təşkil edəcəkləri söz verilib. Bunun ardınca etiraz aksiyasının bəzi iştirakçıları BMT-nin Ermənistandakı ofisinin binasının qarşısına gediblər.

Respublika meydanına toplaşan "qaçqın"lardan biri isə hökumətə qarşı daha sərt çıxışlar edib.

- İrəvanda kirayə haqqı 80-150 min dram arasında dəyişir. Qışda isə kommunal xərclər geometrik şəkildə artır. Amma biz qaçqınlara 20 min pul verirlər. Camaat, hamınız bu puldan imtina etməyə hazırsınız? Sabah qərargaha gedin ərizə yazıb deyin ki, 20 mininiz başınıza dəysin ay əclaflar.

# Mahir Emreli problemi - "Legiya" rəsmi təklif alıb...

***"Legiya"nın idman direktoru Yatsek Zelinski komandanın futbolçusu Mahir Emreli ilə bağlı açıqlama verib.***

Polşa klubunun rəsmisi Mahirlə bağlı hüquqi işlərin davam etdiyini söyləyib: "Məşqlərə qatılmamaqla şəxsi məqsədlər üçün istifadə etmək ağılsızlıqdır. Bu, ilk növbədə futbolçunun özünə ziyandır. Emreli əvvəlkitək bizim oyunçudur".



Komandanın baş məşqçisi Aleksandr Vukoviç isə bildirib ki, Emreli əvvəlkitək "Legiya"nın futbolçusudur: "Onunla indi əlaqəmiz olmasa da, o, müqavilə ilə "Legiya"ya məxsusdur".

Bu arada Türkiyənin "Milliyyət" qəzeti "Başakşehir" klubunun Mahir Emreli ilə razılığa gəldiyini iddia edib. Bundan sonra isə "Legiya"nın razılığı alınmalıdır ki, türklər artıq Varşava təmsilçisinə müraciət edib. "Başakşehir"in Mahiri hüquqi problem olmadan heyətinə cəlb etmək istədiyi və buna görə 750 min avro ödəməyə hazır olduğu da bildirilib.

Polşa mediası isə yazır ki, "Legiya" həqiqətən də "Başakşehir"dən rəsmi təklif alıb. Amma təklif olunan məbləğ Polşa çempionunu qane etmir. Varşava klubu daha çox pul istəyir. Məlumata görə, Mahirlə bağlı durumu izləyən klub təkcə "Başakşehir" deyil.

"Bizdə olan məlumata görə, "Legiya" digər klublardan da təklif alıb. Amma bu təkliflər "Legiya"nın istədiyi kimi deyil" - deyə sport.tvp.pl saytı yazıb.

Qeyd edilir ki, Mahirin transfer qiyməti 3 milyon avro təşkil edir. Lakin klub 1 milyon avro güzəşt etməyə hazırdır. Yazıda həmçinin vaxtın azaldığı, qış transfer müddətinin sona yaxınlaşmaqda olduğu da xatırladılıb: "Futbolçu "Legiya"dan getmək istəyir. Klub isə onu pulsuz buraxmaq niyyətində deyil. Yanvarın sonunda isə bir çox liqada transfer pəncərəsi bağlanır"(qol.az).

# Şevçenko 20 milyon avro təzminat tələb edir

***"Cenoa" (İtaliya) istefaya göndərdiyi baş məşqçisi Andrey Şevçenko ilə müqaviləni qarşılıqlı olaraq ləğv etmək üçün danışıqları davam etdirir.***

Qol.az Polşa mətbuatına istinadən xəbər verir ki, bu proses heç də asan keçmir. Ukraynalı mütəxəssis ona çatacaq olan təzminatı tam olaraq almaq istəyir. Klub isə onun şərtini yerinə yetirməkdən boyun qaçırır.

Qeyd edək ki, müqavilə vaxtından əvvəl və birtərəfli qaydada klub tərəfindən ləğv olunduğu üçün Şevçenko 20 milyon avro təzminat tələb edir. Bildirilir ki, əgər o, ilkin mərhələdə tələb etdiyi təzminatın yarısını ala bilsə, bu halda daha az maaşla Polşa millisinə rəhbərliyi qəbul edəcək.

Qeyd edək ki, Polşa Futbol İttifaqı Şevşenkoya illik 2.5 milyon avqoluq müqavilə təklif edib.



Xatırladaq ki, 2021-ci ilin noyabrında "Cenoa"nın baş məşqçisi təyin olunan Andrey Şevçenko uğursuz nəticələrə görə cəmi iki ay sonra istefaya göndərilib.

# "Qrupdan çıxmaq üçün şansımız var" - Millimizin üzvü

***Azərbaycan millisinin futzalçısı İsa Atayev İspaniya ilə 2:2 hesablı heç-heçə etdikləri Avropa çempionatının qrup mərhələsinin 2-ci tur oyunu barədə federasiyanın Mətbuat Xidmətinə açıqlama verib.***




Qol.az xəbər verir ki, 33 yaşı oyunçu iki dəfə hesabda irəli çıxdıqlarını, amma yekunda heç-heçə ilə barışmalı olduqlarını bildirib: "Çox çətin oyun oldu. Gürcüstana 2:3 hesabı ilə uduzduğumuz ilk qarşılaşmada baş məşqçi mənə şans verədi. Onun fikirlərinə hörmətlə yanaşırıq. Üçüncü matça tam hazır heyətlə çıxacağıq. İki oyunçumuz koronavirusa görə bizə qoşula bilməmişdi. Heyətimiz də tam deyildi. Üçüncü matçda qələbə qazanacağımıza ümid edirəm. Hələlik qrupdan çıxmaq üçün şansımız var. İnanıram ki, şans bizim tərəfimizdə olacaq".

Yığmanın digər üzvü Rafael Vilela ilk görüşdə Gürcüstana iki qol vurduğunu xatırladıb. O, həmin qarşılaşmada üstünlüklərini qoruya bilməmələrindən təəssüfünü ifadə edib: "Vacib oyunda yenildik. Halbuki növbəti addım üçün bu qarşılaşmanın əhəmiyyəti danılmazdır. İspaniyaya qarşı isə daha yaxşı oynadıq. İki dəfə hesabda önə keçdik, yenə qələbəni qoruya bilmədik. Amma turnirin favoritlərindən biri hesab edilən ispanlarla dueldə heç-heçə pis nəticə deyil. Onlara qarşı bir neçə dəfə mübarizə aparmışam. Həqiqətən də çox güclü rəqibdir. Məncə, ilk dəfə rəsmi oyunda İspaniyaya uduzmuruq. Nəticəni super hesab etmirəm, super nəticə qələbə olan zaman deyirlər, amma dünya reytinqinə başçılıq edən komanda ilə heç-heçə asan olmadı. Hətta sona yaxın qələbə qolunu da vura bilərdik".

Vilela İspaniyanın cütün favoriti hesab edildiyini vurğulayıb: "Amma biz oyunumuzla istənilən güclü komanda ilə başabaş mübarizə aparmağa hazır olduğumuzu göstərdik. Hələ mübarizə başa çatmayıb. Məşqlərimizi davam etdirəcəyik, Bosniya və Herseqovina ilə oyuna ciddi hazırlaşacağıq. Hər bir qələbə bizim üçün vacibdir. İşimizi görməliyik. Ümid edirik ki, son turda Gürcüstan millisi ispanları büdrədəcək".

Qeyd edək ki, hazırda qrupda 1 xalla üçüncü olan Azərbaycan seçməsi sonuncu matçını yanvarın 29-da Bosniya və Herseqovina ilə keçirəcək. Azərbaycan yığması qrupdan çıxmaq üçün son turda böyük hesabla qallib gəlib, İspaniyanın Gürcüstana uduzmasını gözləməlidir.

# Fərid Nəbiyev Çexiyada 2 qol vurdu

***Azərbaycanlı futbolçu Fərid Nəbiyevin çıxış etdiyi Çexiyanın "Viktoriya"nın (Jijkov) heyətində növbəti oyuna çıxıb.***



"Vratimov" (Çexiya) klubuna qarşı yoxlama matçında Fəridin komandası 4:1 hesabı ilə qələbə qazanıb (ilk hissə 1:0). 22 yaşlı vingerimiz ikinci hissənin əvvəlində meydana daxil olub və iki qol vurub.

Qeyd edək ki, "Viktoriya" Çexiyanın 2-ci liqasında yarışır. Hazırda komanda 16 oyundan 10 xalla turnir cədvəlində sonuncu - 16-cı yeri tutur.

# Şəhriyar Məmmədyarovdan heç-heçə



***Niderlandın Veyk-an-Zeye şəhərindəki şahmat üzrə "Tata Steel Chess" turniri davam edir.***

Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov növbəti görüşünü keçirib. 37 yaşlı qrossmeyster 10-cu turda ABŞ-dan olan Sem Şenklendlə qarşılaşıb. Qara fiqurlarla oynayan Məmmədyarov 29-cu gedişdə heç-heçəyə razılaşıb.

Bu nəticədən sonra xallarını 7-yə çatdıran Məmmədyarov 3-cü pillədə qərarlaşıb. Turnir cədvəlinə 8 xalı olan norveçli dünya çempionu Maqnus Karlsen başçılıq edir.

# "Nəticəni sensasiya hesab etmirəm" - Joze Alesio

***"Uşaqlarla hər gün danışırdıq ki, istənilən komandaya qarşı oynamaq olar ki, bu gün də bunu sübut etdik. Bu qarşılaşmadakı motivasiya, konsentrasiya və intizamla Azərbaycan yığması istənilən rəqiblə oynaya bilər".***



Qol.az xəbər verir ki, bu sözləri futzal üzrə Azərbaycan milli komandasının baş məşqçisi Joze Alesio Da Silva Avropa çempionatının qrup mərhələsinin 2-ci turunda İspaniya ilə 2:2 hesablı heç-heçə etdikləri oyunundan sonra mətbuat konfransında deyib.

Braziliyalı mütəxəssis qrupdan çıxmaq ümidlərini itirmədiklərini bildirib: "İspaniya ilə görüşdə futzalçılar bacarıqlarını ən yaxşı şəkildə ortaya qoydular. Düzdür, onlar matçın favoriti hesab edilirdilər, amma nəticəni sensasiya hesab etmirəm. Hətta qələbə qazanmaq üçün imkanımız oldu. Bugünkü görüşdə az səhvə yol verdik. Oyun intizamından qopmadıq və öz oyunumuzu nümayiş etdirdik.

Az da olsa, qrupdan çıxmaq şansımız qalıb. Bosniya və Herseqovaniya qarşı yaxşı hazırlaşıb lazımi nəticəni qazanmağa çalışacağıq".

# "İnter" yeni müdafiəçi transfer edir



***"İnter" heyətinə yeni futbolçu qatmağa hazırlaşır. A seriyası təmsilçisi "Atalanta"dan Robin Qosensi icarəyə götürməyə yaxındır.***

Klub artıq 25 yaşlı müdafiəçi ilə razılığa gəlib. Milan klubu oyunçunu 25 milyon avroya satın ala bilmə maddəsi ilə icarəyə götürəcək. Qeyd edək ki, Qosens bu mövsüm 8 matçda 2 qol vurub.